HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 32 (926) ▪ 29 avqust 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Almaniya Federativ Respublikası Federal Kanslerinin Azərbaycana səfəri

Azərbaycan Respublikasına səfərə gələn Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin avqustun 25-də rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Angela Merkeli qarşılayıb. Hər iki ölkənin dövlət himnləri səsləndirilib. Sonra Prezident İlham Əliyev və Federal Kansler Angela Merkel Xəzərin mənzərəsini seyr ediblər.



## Angela Merkel: «Azərbaycan bu regionda Almaniyanın ən böyük ticarət tərəfdaşıdır»

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən Almaniya Kansleri Angela Merkel bildirib ki, hər iki ölkənin çoxtərəfli münasibətləri var: «Biz artıq beynəlxalq təşkilatlar çərçivəsində dəfələrlə görüşmüşük və hesab edirəm ki, bu səfər bizim münasibətlərimizə yeni təkan verəcək. Biz həm də mədəniyyət sahəsində əlaqələrimizi də genişləndirə bilərik. Azərbaycanda ilk alman koloniyasının yaradılmasından 200 il keçir. Bəzi insanların bu barədə heç məlumatı yoxdur. Biz iqtisadi əlaqələrimizi genişləndirə bilərik. Azərbaycan bu regionda Almaniyanın ən böyük ticarət tərəfdaşıdır».

Həmin gün Azərbaycan Prezidenti adından Almaniyanın Federal Kanslerinin şərəfinə verilmiş rəsmi nahardan sonra mətbuat konfransı keçirilib. Mətbuata bəyanatla çıxış edən dövlətimizin başçısı bildirib ki, bu, Almaniya Kanslerinin Azərbaycana ilk səfəridir: «Bu, tarixi bir səfərdir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər nəticəsində Almaniya-Azərbaycan əlaqələri sürətlə inkişaf edəcək, bu səfər əlaqələrimizə yeni təkan verəcəkdir.

Bu gün biz gündəlikdə duran bir çox məsələləri çox açıq, konstruktiv şəkildə müzakirə etdik. Əminəm ki, aparılan danışıqlar, keçirilmiş fikir mübadiləsi gələcək əməkdaşlıq üçün yaxşı zəmin yaradır.

Mən xanım Kanslerə regional təhlükəsizlik məsələləri, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verdim. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur, onları icra etmir. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.

Biz bu gün digər məsələlərlə bağlı fikir mübadiləsi apardıq. Aramızda olan ticarət dövriyyəsi artır. Bu gün biz Almaniya və Azərbaycan biznes dairələrinin nümayəndələri ilə görüşəcəyik. Almaniyadan olan şirkətlər Azərbaycanda bir çox layihələrdə iştirak edirlər və əminəm ki, bu səfərdən sonra onların buradakı fəaliyyəti daha da genişlənəcək, buna böyük imkanlar var. Azərbaycan indi iqtisadi şaxələndirmə siyasətini uğurla aparır, çox böyük sərmayələr qoyulur, sərmayə iqlimi də çox müsbətdir. Son 15 il ərzində Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur ki, bunun da təxminən yarısı xarici sərmayədir.

Enerji təhlükəsizliyi məsələləri, əlbəttə ki, diqqət mərkəzindədir. Azərbaycan bu sahədə öz rolunu oynayır və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verir. Xüsusilə Cənub Qaz Dəhlizinin yaradılması tarixi hadisə kimi qəbul edilir. Bu, çox böyük, genişmiqyaslı layihədir, 40 milyard dollar sərmayə tələb edən layihədir və uğurla icra edilir. Bu ilin may ayında Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur.

Biz xanım Kanslerlə, eyni zamanda, demokratiya, insan haqlarının qorunması ilə bağlı fikir mübadiləsi apardıq və bu sahədə əməkdaşlığımızı davam etdirmək fikrindəyik. Avropa İttifaqı-Azərbaycan əlaqələri də müzakirə edildi, biz bu əlaqələrin inkişafından çox razıyıq. Bu il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq prioritetləri sənədi imzalanmışdır və böyük saziş üzərində çox konstruktiv şəkildə iş aparılır. Ümid edirəm ki, danışıqlar yaxın zamanlarda uğurla başa çatacaq və Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq üçün yeni dövr başlanacaqdır. Bir sözlə, bu gün bu və digər məsələlər, o cümlədən regional vəziyyətlə bağlı məsələlər də müzakirə edildi. Bu göstərir ki, aramızda olan münasibətlər doğrudan da səmimidir, dostluq münasibətləridir və səfərin də bu münasibətlərin möhkəmlənməsində çox böyük rolu olacaqdır».

Səmimi qəbula və intensiv diskussiyaya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Almaniyanın Federal Kansleri Angela Merkel qeyd edib ki, Azərbaycana etdiyi bu ilk səfər imkan verdi ki, ölkələrimiz arasında münasibətləri burada açıq şəkildə müzakirə edək, əməkdaşlığımızı davam və inkişaf etdirək: «Bizim ikitərəfli münasibətlərimiz onunla xarakterizə olunur ki, bu regionda Azərbaycanın simasında ən böyük, ən vacib ticarət tərəfdaşımız var. Azərbaycanda xarici ticarət palatamız var, burada 150 alman müəssisəsi fəaliyyət göstərir. Azərbaycan da, öz növbəsində, iqtisadiyyatın şaxələndirilməsinin həyata keçirilməsində maraqlıdır və Almaniya bu sahədə öz ciddi töhfəsini verə bilər. Bu gün birgə biznes forumu da buna xidmət edəcək və orada detallar barədə danışacağıq.

Azərbaycan Avropa İttifaqının enerji şaxələndirilməsində güclü bir amildir və Cənub Qaz Dəhlizinin açılması Avropanın enerji təminatında böyük rol oynayacaq. Biz Azərbaycanda Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasını yüksək qiymətləndiririk. Bu, Avropa ilə ticarət əlaqələrini genişləndirəcək, mübadilə aparılmasını yaxşılaşdıracaq. Biz Azərbaycanın daxili vəziyyəti, insan hüquqları barədə çox açıq şəkildə söhbət etdik. Bütün məsələlərdə həmişə tam eyni mövqe olmasa da, biz dünyəvi dövlətin qurulmasının, açıq demokratik şəraitin yaradılmasının vacib və arzuedilən olduğu barədə danışdıq.

Dağlıq Qarabağ məsələsi haqqında açıq danışdıq. Mən bir daha vurğuladım ki, Almaniya bu münaqişənin həllində maraqlıdır və biz buna Minsk qrupu çərçivəsində öz töhfəmizi verəcəyik. Ermənistanda yeni hökumətin qurulması faktı bəlkə də bu sahədə vəziyyətin yaxşılaşdırılmasına, danışıqlara təkan verilməsinə səbəb ola bilər və Almaniya da burada iştirak edə bilər. Biz regionun təhlükəsizliyi haqqında da danışdıq.

Azərbaycanın coğrafi vəziyyəti çox maraqlıdır, yəni, bir tərəfdən Rusiya, bir tərəfdən İranla əhatə olunub, Türkiyə ilə əlaqələri var. Biz bu fikirlə razıyıq ki, münaqişələr sülh, danışıqlar yolu ilə həll olunsun və bu regionda mövcud olan bütün münaqişələr sülh yolu ilə həll edilməlidir.

Bizim bundan sonrakı dialoqumuzun intensivləşdirilməsi üçün şərait və əsaslar var. Bəzən fərqli fikirlər olanda da bu barədə danışmaq və fikir mübadiləsi aparmaq lazımdır və qarşı tərəfin fikrinə də diqqətlə qulaq asmaq lazımdır. Ona görə də mən Sizə müzakirələr üçün təşəkkür edirəm, çox sağ olun».

Sonra Prezident İlham Əliyev və Federal Kansler Angela Merkel jurnalistlərin suallarını cavablandırıblar.

**Davamı 2-ci səhifədə**

# Prezident İlham Əliyev Şamaxı və İsmayıllı rayonlarında olub

Avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonuna səfər ediblər. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Şamaxı şəhərində ucaldılan abidəsini ziyarət edib, abidəsi önünə gül dəstəsi qoyub.




Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird yerlik Şamaxı rayonu şəhid Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbinin yeni binasının açılışında iştirak ediblər. Ötən əsrin 50-ci illərində inşa edilmiş və o dövrdən sonra heç vaxt təmir olunmayan məktəb artıq müasir tələblərə cavab vermirdi və tədris üçün yararsız vəziyyətə düşmüşdü. Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət, bu sahədə həyata keçirdiyi islahatlar Meysəri kənd tam orta məktəbinin həyatında da mühüm rol oynadı. 2016-cı ildə Meysəri kənd tam orta məktəbi üçün yeni binanın inşasına başlanılıb. Məktəb binası artıq istifadəyə hazırdır və burada inşaat işləri yüksək səviyyədə yerinə yetirilib. Müasir və işıqlı sinif otaqlarının olduğu məktəbdə təlim və tədrisin yüksək səviyyədə aparılması üçün bütün şərait yaradılıb. Məktəbin kitabxanası dərsliklər və dərs vəsaitləri ilə təmin olunaraq şagirdlərin istifadəsinə verilib. İdman zalında da müasir qurğular quraşdırılıb. Akt zalında isə məktəbin həyatı ilə bağlı müxtəlif tədbirlərin keçirilməsinə hər cür imkan var. Məktəbdə əyani vasitələrlə təchiz olunan fənn kabinetləri yaradılıb. Xarici dil otaqlarının, kimya, fizika və biologiya üzrə fənn kabinetlərinin olduğu məktəbdə informatika kabineti kompüter avadanlığı ilə təchiz edilib. Məktəbin hərbi kabinetində şagirdlərin hərbi biliklərə yiyələnmələri üçün hər cür şərait yaradılıb.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Meysəri kəndindəki «Şirvan şərabları» MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında iştirak ediblər. Bildirilib ki, üzümçülük və şərabçılıq kompleksinin ümumi sahəsi 310 hektardır. Kompleksin ərazisində sahəsi 4398 kvadratmetr olan şərab zavodu müasir texnologiya ilə inşa edilib və Fransanın «Pera» şirkətinin avadanlıqları ilə təchiz olunub. Müəssisənin hədəfi illik 1,4 milyon litr şərab istehsalına nail olmaqdır. Həmçinin regionun turizm potensialını da nəzərə alaraq kompleksə turist turlarının təşkil olunması və nəticədə ölkəmizdə şərabçılıq turizminə töhfə vermək də müəssisənin qarşıya qoyduğu məqsədlərdəndir. Bu məqsədlə ərazidə şərab muzeyi və restoran binası, terras istifadəyə verilib, qonaqlar üçün avtodayanacaq və qonaq evi tikilib.

**Davamı 2-ci səhifədə**

## Rəsmi xronika

- Avqustun 28-də Bakı bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən «Qu quşları» fəvvarə kompleksinin açılışı olub. Prezident İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər. Fondun icraçı direktoru Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma burada görülən işlər barədə məlumat verib. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub, təbii daşlar üzərində 7 qu quşu heykəli hazırlanıb. Fondun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, tarixi ənənələrin qorunması ideyasına söykənən layihə üzərində işlər yüksək səviyyədə həyata keçirilib.
  Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dənizkənarı milli parkda kiçik Venesiya şəhərciyinin ərazisinə də baxıblar.

- Həmin gün dövlətimizin başçısı və birinci xanım Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılmış Bakı Kitab Mərkəzinin açılışında da iştirak ediblər. Əsas məqsədi mütaliəyə marağın artırılması olan Bakı Kitab Mərkəzində Azərbaycan və digər dillərdə dünya ədəbiyyatı bestsellerləri, incəsənətə dair nadir albomlar, turistlər üçün bələdçi kitablar, musiqi kitabları və notlar da satılacaq. Mərkəzdə oxucular Azərbaycan dili ilə yanaşı, rus, ingilis, alman, fransız, ispan və ərəb dillərində nəşrlər də əldə edə bilərlər.
  Bakı Kitab Mərkəzində oxuculara Heydər Əliyev Fondunun ayrı-ayrı sahələr üzrə nəşrləri də təqdim edilir. Fondun ulu öndər Heydər Əliyev, tariximiz, mədəniyyətimiz, incəsənətimiz, görkəmli şəxsiyyətlərimiz haqqında bir-birindən maraqlı nəşrləri müxtəlif dillərdə ölkəmizin təbliği baxımından mühüm rol oynayır.
  Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nizami Gəncəvinin 1941-ci ildə nəşr olunmuş «İsgəndərnamə» əsəri və Dubrovinin 1866-cı ildə çap edilmiş «Zakavkazye» adlı tarixi əsərinin siqnal nüsxələrinə baxıblar. Mərkəzlə tanış olan dövlətimizin başçısı və xanımı kollektivin fəaliyyətinə uğurlar arzulayıblar.

Vergilər naziri Sumqayıtda vətəndaşları qəbul edib — səh. 2

Kassa çeki vergidən yayınmanın qarşısını alır — səh. 3

Nəqliyyat xidməti üzrə sadələşdirilmiş vergi — səh. 4

Turizm yeni biznes münasibətlərinin formalaşmasına şərait yaradır — səh. 5

# Almaniya Federativ Respublikası Federal Kanslerinin Azərbaycana səfəri

**Əvvəli 1-ci səhifədə**

Avqustun 25-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin iş adamları ilə görüşü olub. Tədbirdə Azərbaycan Prezidenti və Almaniyanın Federal Kansleri çıxış ediblər.

Dövlətimizin başçısı bildirib ki, Almaniyadan olan şirkətlər Azərbaycanda uzun illərdir fəaliyyət göstərir, onlar bir çox sahələrdə müxtəlif layihələr icra ediblər. Yalnız dövlət vəsaiti hesabına Almaniya şirkətləri dəyəri 1 milyard dollardan çox layihələr həyata keçiriblər. Dövlətimizin başçısı gələcəkdə bu rəqəmin daha da artacağına əminliyini ifadə edib: «Alman şirkətləri Azərbaycanda yaxşı tanınır, onların keyfiyyəti, texnologiyaları bizim ölkəmiz üçün çox böyük fayda verir. Azərbaycan indi müasirləşmə dövrünü yaşayır, iqtisadi şaxələndirmə bizim əsas prioritetimizdir. Bütövlükdə deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb, ölkəmizin makroiqtisadi vəziyyəti sabitdir, xarici borc ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir, işsizlik 5 faiz səviyyəsindədir. Son 15 il ərzində Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görüb və bu, onu göstərir ki, iqtisadi şaxələndirmə siyasəti Azərbaycanda uğurla aparılır. Biz əlbəttə ki, böyük neft-qaz resurslarına malikik, onları ixrac edirik, amma əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu sahədə əlbəttə ki, Almaniyadan olan şirkətlər bizə kömək göstərə bilərlər.

Hazırda kənd təsərrüfatının inkişafı, turizm, informasiya-kommunikasiya sektoru, infrastruktur layihələri, o cümlədən dəmir yollarının modernləşdirilməsi, inşaat sektoru və digər sahələr prioritetlər sırasındadır. Əminəm ki, bu gün keçiriləcək söhbət nəticəsində yeni kontraktlar imzalanacaq, yeni əməkdaşlıq formatı yaradılacaqdır».

Almaniya Kansleri Angela Merkel çıxışında səfər çərçivəsində Prezident İlham Əliyevlə ikitərəfli, eləcə də Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri ilə bağlı intensiv fikir mübadiləsi apardığını qeyd edib: «Biz Azərbaycanın geostrateji ərazidə yerləşməsi, İran və Rusiya ilə sərhədlərə malik olması, Türkiyə ilə sıx münasibətləri barədə də danışdıq. Azərbaycan Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkədir. Bu binadan da gördüyümüz kimi, Azərbaycan çox sürətli inkişafa nail olub. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi yaxşı faktdır. Alman iqtisadiyyatının da geniş şaxəli olması burada yaxşı partnyorluq üçün əsas yaradır. Azərbaycanda alman xarici ticarət palatası var, burada 150-dən çox alman müəssisəsi fəaliyyət göstərir. Prezident də qeyd etdi ki, ölkənin iqtisadiyyatının inkişafına töhfə vermək üçün digər müəssisələr də ürəkdən dəvət olunur. Bizim bunda böyük marağımız var.

Azərbaycan dünyəvi bir dövlətdir. Biz bu barədə danışdıq. Bu gün Azərbaycan dünyəvi müsəlman dövlətidir. Baxmayaraq ki, biz bu gün dünyanın bir çox ölkələrində islamlaşmanın daha da güclənməsi trendlərini müşahidə edirik.

Azərbaycanın iqtisadiyyatı üçün bu uğurların böyük əhəmiyyəti var. Almaniya bu sahədə yaxşı partnyor ola bilər. Mən çox şadam ki, yaranmış bu imkandan istifadə edib sizi dinləyə biləcəyik. Biz istəyirik ki, iqtisadiyyat nümayəndələri çıxış etsinlər, öz fikirlərini bildirsinlər. Nə qədər konkret danışılsa, alman iqtisadiyyatından nümayəndələr bir o qədər çox söz deyə bilərlər. Burada İqtisadiyyat Nazirliyindən dövlət katibi iştirak edir. Nazir müavini və o, Azərbaycan tərəfindən deyilənləri qeyd edərək Almaniya tərəfindən görülən işlər haqqında fikirlərini sonra paylaşacaqlar».

Bununla da Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin Azərbaycana səfəri başa çatıb.

# Prezident İlham Əliyev Şamaxı və İsmayıllı rayonlarında olub

**Əvvəli 1-ci səhifədə**

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İsmayıllı rayonuna gəliblər. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Səfər çərçivəsində dövlətimizin başçısı Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolunun və rayonun Keyvəndi kəndinin ərazisində istifadəyə verilən «AZZA AGRO» MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin, eləcə də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İsmayıllı filialının, yenidən qurulan 110/35/10 kilovoltluq 2x16 MVA gücə malik «İsmayıllı» yarımstansiyasının və Qaramərəyəm-İsmayıllı-Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı-Kələbənd-Girk avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında da iştirak edib.

İsmayıllı rayonunda «Buta Qrup» MMC tərəfindən yaradılmış aqroparkın açılışında iştirak edən dövlətimizin başçısına ətraflı məlumat verilib ki, ümumi dəyəri 22 milyon manat olan aqroparkın yaradılmasına birinci mərhələdə 7,7 milyon manat investisiya qoyulub.Ərazisi 602 hektar olan aqroparkın tərkibinə əkinçilik təsərrüfatı, soyuducu anbar kompleksi, istehsal olunmuş kənd təsərrüfatı məhsullarının çeşidlənməsi və paketlənməsi sahələri daxildir. Aqroparkda cari ildə 120 hektar buğda, 120 hektar kartof və 96 hektar qarğıdalı əkilib. Əkin sahələrinin davamlı və keyfiyyətli su təminatının həyata keçirilməsi üçün 2 su anbarı inşa edilib, su və elektrik xətləri çəkilib, ilkin olaraq 90 hektar sahədə müasir pivot suvarma sistemi qurulub, müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və aqreqatlar alınıb. Aqroparkın 3 min ton tutumu olan soyuducu anbar kompleksi məhsulların uzun müddət keyfiyyətli və itkisiz saxlanılmasına imkan verir. Anbarda gücü saatda 15 ton çeşidləmə və gücü saatda 10 ton olan paketləmə xətləri quraşdırılıb. Bu avadanlıq hesabına sahədən yığılan ekoloji təmiz məhsullar ölçülərinə görə çeşidləndikdən sonra paketlənərək aqroparkın soyuducu anbar kompleksində saxlanılır və əsasən qeyri-mövsüm dövründə satışa çıxarılır. Kartofçuluq üzrə ixtisaslaşan aqroparkda il ərzində təqribən 2,7 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunaraq «İsmayıllı Tərəvəzləri» brendi altında yerli və xarici bazarlarda satışa çıxarılacaq.

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş Dəmirçi Arxeologiya Muzeyinin açılışında iştirak ediblər. Məlumat verilib ki, dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən kəndin mərkəzi hissəsində turizm infrastrukturu, o cümlədən dəmirçi və misgərlik emalatxanası, kafe, çayxana, təndir, «Azərxalça» ASC-nin guşəsi, suvenir mağazası və «ABAD» dükanları, avtomobil dayanacağı yaradılıb, «Qala» və bulaq kompleksi inşa edilib. Dövlətimizin başçısının göstərişi ilə ölkəmizin ən qədim dini məbədlərindən olan kənd məscidi əsaslı şəkildə yenidən qurulub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışında və Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak ediblər.

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı Safari Parkında olublar. Bildirilib ki, «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndəki tapşırıqlara uyğun olaraq, vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunda Pirqulu adlanan dağ-meşə massivində 620 hektar ərazinin hüdudları içərisində 480 hektarlıq sahə beynəlxalq standartlara uyğun formada çəpərlənib. İstifadəyə verildiyi vaxt parkda 790 baş heyvan - nəcib maral, lan və muflon kimi genetik qiymətli heyvanlar var idi.

Təhsil Nazirliyi ilə əldə olunmuş razılığa əsasən sentyabrdan başlayaraq hər həftə sonu məktəblilər üçün Safari Parka turlar təşkil ediləcək. Ərazini gəzmək məktəblilər üçün ödənişsiz olacaq. Turist qəbulu üçün də hazırlıqlar tamamlanmaq üzrədir. Oktyabrdan etibarən turistlərin buraya səfərləri təşkil olunacaq. Həm məktəblilər, həm də turistlər parkda vəhşi heyvanları seyr edə, onların şəkillərini çəkə və ətraflı məlumat ala biləcəklər. Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Heyvanlar üçün çoxsaylı təbii daldalanacaqlar düzəldilib. Onların qidalanmasına da diqqət yetirilir.

> Bizim əsas məqsədimiz odur ki, iş yerləri yaradılsın, insanlara yaxşı maaş verilsin, hər bir vətəndaş halal zəhməti ilə öz həyatını qursun, ailəsini saxlasın və firavan yaşasın

# Vergilər naziri Sumqayıtda vətəndaşları qəbul edib



Avqustun 27-də vergilər naziri Mikayıl Cabbarov 2 saylı Ərazi Vergilər Departamentinin Sumqayıt şəhərindəki inzibati binasında vətəndaşları qəbul edib. Qəbulda Sumqayıt şəhəri, Abşeron, Xızı, Siyəzən, Qubadlı, Şuşa və Zəngilan rayon sakinləri iştirak ediblər.

Qəbula gələn vətəndaşlar, əsasən, yaranmış vergi borcları, vergi orqanlarında işə bərpa, vergi inzibatçılığı sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

# Yeni internet portalı fəaliyyətə başlayacaq

Prezident İlham Əliyevin sərəncamına əsasən, beş ay müddətində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın fəaliyyəti ilə bağlı internet portalı yaradılacaq. Sərəncamla, həmçinin, «Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya haqqında Əsasnamə» də təsdiq edilib. Əsasnamədə qeyd olunur ki, Komissiya sahibkarlıq fəaliyyətinin optimal gəlirliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması ilə əlaqədar qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsinə və bu istiqamətdə digər zəruri tədbirlərin görülməsinə dair təkliflərin hazırlanmasında və həyata keçirilməsində iştirak edən kollegial orqandır.

Biznes və investisiya mühitinin əlverişliliyinin artırılması, bu sahədə mütərəqqi tənzimləmə və hüquqtətbiqetmə praktikasına nail olunması üçün, ölkədə rəqabət mühitinin vəziyyətini təhlil etmək, sahibkarlığın inkişafı və onun rəqabət qabiliyyətinin daha da yüksəldilməsini təmin edəcək rəqabət mühitinin formalaşması, inkişafı və təşviqi sahəsində dövlət siyasətinin təkmilləşdirilməsi, əlverişli təşviqedici mühit yaradılmasına xidmət edən iqtisadi alətlərin əhatə dairəsini genişləndirməklə biznesin davamlılığının möhkəmləndirilməsi barədə, beynəlxalq inteqrasiya prosesinin sürətləndirilməsi və nüfuzlu beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması sahəsində, iqtisadi sahədə münasibətləri tənzimləyən qanunvericilik bazasının daha da təkmilləşdirilməsinə dair təkliflər vermək Komissiyanın vəzifələrindəndir.

Komissiyanın biznes mühitinin və beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasını təmin edəcək məsələlərin həlli ilə bağlı proqram və layihələr hazırlamaq, onların hazırlanması və həyata keçirilməsi üçün yerli və xarici ekspertləri, mütəxəssisləri, habelə beynəlxalq təşkilatların və elmi müəssisələrin, müxtəlif dövlət qurumlarının və maraqlı tərəflərin nümayəndələrini cəlb etmək və bu istiqamətdə onlarla əməkdaşlıq etmək, sahibkarlıq fəaliyyəti subyektləri və onların nümayəndələri ilə görüşlər keçirmək, belə görüşlərin keçirilməsini təşkil etmək və müzakirələr aparmaq, aidiyyəti dövlət orqanlarının və qurumlarının, publik hüquqi şəxslərin, qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, müəssisə və təşkilatların mütəxəssislərindən və müstəqil ekspertlərdən ibarət işçi qruplar və altqruplar yaratmaq, onların fəaliyyətini təşkil etmək və əlaqələndirmək, Komissiyanın fəaliyyəti ilə bağlı yerli və xarici ekspertlərin, mütəxəssislərin cəlb edilməsi, habelə müxtəlif tədbirlərin və proqramların həyata keçirilməsi üçün maliyyələşmə ilə əlaqədar aidiyyəti üzrə müraciət etmək hüquqları var.

# MDB ölkələrinin Vergi Xidmətləri Rəhbərlərinin Əlaqələndirmə Şurasının 25-ci iclası keçirilib

Avqustun 24-də Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilmiş tədbirdə ölkəmizi vergilər nazirinin müavini Sahib Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.




Vergi xidmətləri ekspertlərinin iclasında Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin baza təşkilatlarının fəaliyyəti, vergi orqanları arasında elektron məlumat mübadiləsinə dair protokol layihəsi, vergi orqanları tərəfindən rezidentlik sertifikatının elektron qaydada qəbul edilməsi imkanları müzakirə olunmuş, vergi ödəyiciləri ilə iş metodlarına dair təcrübə mübadiləsi aparılmışdır. Rusiya Federal Vergi Xidmətinin rəhbəri Mixail Vladimiroviç Mişustin növbəti il üçün Şuranın sədri seçilmişdir.

İclasda MDB ölkələrinin vergi xidmətlərinin Koordinasiya Şurasının ekspertlərinin iclasının yekun nəticələri nəzərdən keçirilmiş, üzv dövlətlərdə elektron ticarətin vergi inzibatçılığı təcrübəsi müzakirə edilmiş, «Rəqəmsal iqtisadiyyat dövründə vergi inzibatçılığı» mövzusunda təqdimatlar dinlənilmişdir.

Koordinasiya Şurasının 2018-2019-cu illər üzrə iş planı təsdiq edilmiş və iclasın yekun protokolu imzalanmışdır. İclas zamanı bir sıra dövlətlərin vergi orqanlarının rəhbərləri ilə ikitərəfli görüşlər keçirilmiş, qarşılıqlı əməkdaşlığa dair müxtəlif məsələlər müzakirə olunmuşdur.

# İxrac təşviqi prosedurları sadələşdiriləcək

## 2018-ci ilin ilk 7 ayı ərzində sahibkarlara 2,3 milyon manatdan artıq ixrac təşviqi vəsaiti ödənilib

İxrac təşviqi şamil olunan malların siyahısına bal, xurma, nar, qovrulmuş fındıq kimi kənd təsərrüfatı məhsulları, qurudulmuş meyvələr, konservləşdirilmiş meyvə-tərəvəz, mürəbbə və cemlər, turşular, spirtli içkilər və şərab, mineral sular və şirələr, unlu qənnadı məmulatları, habelə dəri məmulatları, ipək parça və xalça kimi məhsullar daxildir. Məhsulların növündən asılı olaraq sahibkarlara büdcə hesabına ixrac etdikləri qeyri-neft məhsullarının gömrük dəyərinin 3 faizindən 6 faizinədək təşviq vəsaiti verilir. 2016-cı ildən indiyədək qeyri-neft məhsulları ixracatçılarına təşviq üçün 5,4 milyon manatdan artıq pul ödənilib.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri Yusif Abdullayev bildirib ki, dövlət başçısının imzaladığı «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» fərmana uyğun olaraq, təşviq sənədinin verilmə müddətinin azaldılması və prosedurların daha da asanlaşdırılması nəzərdə tutulur. Sahibkarlara verilən təşviq vəsaitinin həcminin artırılması da istisna olunmur. Hazırda təşviq məbləği investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi və layihənin həyata keçiriləcəyi inzibati ərazi vahidlərindən asılı olaraq dəyişir. İnvestisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri 5 region üzrə müəyyənləşib. Birinci regiona Bakı şəhəri, ikinci Bakıətrafı qəsəbələr və Abşeron rayonu, üçüncü Sumqayıt və Gəncə şəhərləri, dördüncü regiona 1, 2, 3 və 5-ci regionlara aid edilməyən şəhər və rayonlar, beşinci regiona Naxçıvan Muxtar Respublikası, Füzuli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi, Naftalan, Goranboy, Göygöl, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Ağstafa, Lerik, Yardımlı, Balakən və Qusar rayonları daxil edilib. Birinci regiondan beşinci regiona doğru iqtisadi fəaliyyət sahələri üzrə tələb olunan investisiya layihəsinin həcmi ilə bağlı məbləğlər azalır. Məsələn, Bakıda investisiya təşviqi sənədinin alınması üçün minimum 5 milyon, Bakıətrafı qəsəbələr və Abşeron rayonunda minimum 3 milyon manat investisiyanın qoyulması tələb edilirsə, 5-ci region üzrə bu tələb 500 min manat həcmindədir.

Fond rəhbəri vurğulayıb ki, bu sahəyə nəzarətin daha da artırılması, ixrac təşviqi sənədinin verilməsi prosesində operativliyin, çevikliyin, əhatəliliyin və şəffaflığın gücləndirilməsinə xüsusi diqqət yetirilir.

**E.CƏFƏRLİ**

# Kassa çeki vergidən yayınmanın qarşısını alır

## Sahibkarların nəzarət-kassa aparatlarından istifadəyə sövq edilməsi üçün daha təsirli və effektiv yanaşma mexanizmlərinə ehtiyac duyulur

Nazirlər Kabinetinin 28 dekabr 1995-ci il tarixli qərarına əsasən, Azərbaycan ərazisində nəzarət-kassa aparatlarının (NKA) tətbiq olunması və onların satış obyektlərində quraşdırılması qaydaları təsbit edilib. Müvafiq qanunvericiliyə əsasən, kassa aparatlarının quraşdırılması və onlardan istifadə olunmasına nəzarət Vergilər Nazirliyinin səlahiyyətlərinə aiddir.

Vergi Məcəlləsinin 50.7-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində ticarət və ictimai iaşə sektorunda nağd pul hesablaşmaları aparan vergi ödəyiciləri ilə hesablaşmaların nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur və bu, Vergi Məcəlləsinin 16.1.8.-ci maddəsinə əsasən, vergi ödəyicisinin vəzifələrinə aid edilib.

### Vəziyyət necədir?

Qaydaların müəyyənləşdirilməsindən təxminən 23 il keçir. O vaxtdan bəri təsərrüfat subyektlərində nəzarət-kassa aparatlarının qeydiyyatı, quraşdırılması və istifadəsi üçün lazım olan bütün infrastruktur yaradılıb, NKA-lar quraşdırılıb. Amma bu sahədə əsas problem vergi ödəyiciləri tərəfindən NKA-lardan istifadənin qənaətbəxş səviyyədə olmamasıdır. Vergilər Nazirliyinin Bakı şəhərində yerləşən iaşə və ticarət obyektlərində nəzarət-kassa aparatlarından istifadə zamanı kassa çeklərinin təqdim olunması ilə bağlı keçirdiyi son monitorinqlər bu sahədə problemlərin olduğunu göstərir.

Nazirliyin əməkdaşları monitorinqlər zamanı vergi ödəyicilərini kassa çeki, qəbz və digər ciddi hesabat blanklarının təqdim edilməsinin vacibliyi və bu tələblərin pozulması ilə bağlı məsuliyyət tədbirləri haqqında məlumatlandırıblar. Monitorinqlər, əsasən, ictimai-iaşə obyektləri, ərzaq, geyim, inşaat və santexnika materiallarının satışını həyata keçirən mağazaları əhatə edib. Monitorinqlər zamanı bir sıra obyektlərdə qanun pozuntularına yol verilməsi, nağd hesablaşmaların aparılması zamanı nəzarət-kassa aparatlarından istifadə olunmaması, kassa çeklərinin vətəndaşlara təqdim edilməməsi kimi hallara rast gəlinib.

Səbail rayonunda yerləşən «Viva dessert» şirniyyat mağazasında, Nəsimi rayonundakı «Geox» ayaqqabı mağazasında, Nərimanov rayonunda fəaliyyət göstərən «Lider inşaat» santexnika mağazasında və «Nobel elektrik» elektrik malları mağazasında monitorinqlər zamanı nöqsanlar aşkar edilməyib və vergi qanunvericiliyinin tələblərinə əməl olunduğu müşahidə edilib. Lakin Nəsimi rayonunda yerləşən «Mega store» supermarketində, Yasamal rayonundakı «One pub kafe» və «Cafe Park» kafelərində, Səbail rayonunda fəaliyyət göstərən «Pappa Rotti» və «Ajda» kafelərində, Nərimanov rayonundakı «SİS underwear» mağazasında, Nəsimi rayonunda yerləşən «Ador» ərzaq mağazasında, həmin rayonun ərazisində fəaliyyət göstərən «Türkoğlu dönər» kafesində, «28 pub» restoranında, «Krevetka» kafesində, Səbail rayonunda yerləşən «Mughal» restoranında, həmçinin bir sıra digər ticarət və ictimai iaşə obyektlərində ilk dəfə belə nöqsanlara yol verildiyi aşkar olunub.

Keçirilən tədbirlərin nəticəsi olaraq, Nəsimi rayonunda yerləşən «Spar market»də, «URP» mağazasında və «Araz supermarket»də, Yasamal rayonunda İlham Həsənova məxsus kafedə, Nərimanov rayonu ərazisində yerləşən «Ted Baker» mağazasında, Səbail rayonundakı «Baumler» mağazasında, Nizami rayonunda avtomobil üçün ehtiyat hissələri satılan mağazada, Nəsimi rayonunda fəaliyyət göstərən «Sekrets» kafesində, «Game and cinema center»də, Səbail rayonundakı «Coffe station» kafesində və digər obyektlərdə nöqsanlar aşkar edilərək aktlar tərtib edilib.

Vergi orqanlarının əsasən maarifləndirci xarakter daşıyan monitorinqləri zamanı obyektlərin yalnız 15%-də qanun pozuntuları aşkar olunmayıb. Qanun pozuntusu aşkar edilmiş obyektlərin yalnız 45%-nə cərimələr tətbiq edilib, qalan 40%-i qanun pozuntusuna ilk dəfə yol verdiyinə görə, onlara xəbərdarlıq olunmaqla kifayətlənilib. Təsərrüfat subyektlərinin nəzərinə çatdırılıb ki, oxşar pozuntulara növbəti dəfə yol verəcəkləri təqdirdə, onlara qarşı qanun çərçivəsində müvafiq tədbirlər görüləcək.

### Vətəndaşlar çek tələb etməkdə fəal olmalıdır




Vergilər Nazirliyi təsərrüfat subyektlərinin hamısına fərdi nəzarət etmək üçün ayrıca müfəttiş ayırmaq imkanlarına malik deyil. Buna görə də nazirlik davamlı olaraq maarifləndirmə tədbirləri həyata keçirir. Lakin vəziyyət onu göstərir ki, cəmiyyətdə vergi mədəniyyəti, xüsusən də sahibkarlıq subyektlərində kassa çeklərinin təqdim edilməsi ilə bağlı vərdişlər hələ də formalaşmayıb. Ona görə də bu sahədə ictimai fəallıq olmalı, vətəndaşlar özləri kassa çekinin vurulmasını tələb etməlidirlər.

Hər bir vətəndaş başa düşməlidir ki, kassa çekinin tələb edilməməsi nəticə etibarilə həmin vəsaitin dövlət büdcəsindən gizlədilməsidir. Gizlədilən bu vəsaitlər hər birimizin sabahkı həyatına təsir edir, həmin pullar insanların sosial rifahının təminatından oğurlanır. Ona görə də NKA-lardan istifadə ümumdövlət siyasəti və cəmiyyətin diqqətində olan aktual məsələ kimi gündəmdən düşməməlidir. Vətəndaşlar özləri kassa çeklərinin tələb edilməsinin vacibliyi haqqında bir-birlərinə zəruri məlumatlar verməli, çek tələb etməkdə vergi orqanlarına kömək etməlidirlər.

Vergilər Nazirliyi maarifləndirmə və izahedici tədbirləri daim ümumi siyasətinin tərkib hissəsi kimi diqqətdə saxlamaqla yanaşı, maarifləndirmə işinə məhəl qoymayan sahibkarlıq subyektlərinə qarşı qanunamüvafiq qaydada tədbirlərin görülməsini də nəzərdən qaçırmayacaq. Maarifləndirmə işi effekt vermədikdə, digər vasitələrdən istifadə olunması zəruriliyi meydana çıxacaq.

### Yeni mexanizmlərin tətbiqinə ehtiyac varmı?

Vergilər Nazirliyi tərəfindən NKA-dan istifadə etməyən təsərrüfat subyektlərinə qarşı daha müasir metodlardan istifadə olunmaqla təsirli yanaşma mexanizmləri tətbiq ediləcək. Bu sahədə beynəlxalq təcrübəni öyrənən nazirlik NKA-larla bağlı ən müasir və innovativ nəzarət metodlarından istifadə imkanlarını araşdırır. Hazırda dünya təcrübəsində olan müasir texniki nəzarət sistemlərinin tətbiqi öyrənilir və onların milli vergi sistemində istifadə olunması nəzərdən keçirilir.

Vergilər Nazirliyinin məqsədi sahibkarları qanunla müəyyən edilmiş öhdəliklərə riayət etməyə sövq etməkdir. Nazirlik dövlətin iqtisadi maraqlarının qorunmasında, dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsində sahibkarları öz üzərlərinə düşən vəzifələri anlamağa çağırır, onları xoşməramlı əməkdaşlığa dəvət edir, eyni zamanda 2018-ci ilin vergi qanunvericiliyinin tələblərinə əməl olunması, cəmiyyətdə vergi mədəniyyətinin formalaşmasında «keçid ili»ndən sui-istifadə etməməyə, nağd pul hesablaşmaları aparan vergi ödəyiciləri ilə hesablaşmaları NKA vasitəsilə həyata keçirməyə, alış-veriş zamanı alıcılara kassa çeki, qəbz və digər ciddi hesabat blanklarını təqdim etməyə, vətəndaşları isə alış-veriş edərkən kassa çeki tələb etməyə çağırır.

### Ekspert hesab edir ki...

Monitorinqlər zaman ortaya çıxan faktların təhlili göstərir ki, bir çox təsərrüfat subyektləri vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin sayının azalmasından sui-istifadə edərək, nağd hesablaşmalar aparan zaman NKA-lardan istifadəni minimallaşdırıblar. Bunun adı isə dövlətin yaratdığı şəraitdən sui-istifadə etmək, vergidən yayınmağa cəhd göstərməkdir.

İqtisadçı Ədalət Əsədov qeyd edir ki, nəzarət-kassa aparatlarından istifadə olunmaması və kassa çekinin verilməməsi ticarət və ictimai iaşə obyektlərinin dövriyyəsini gizlətməsində əsas vasitələrdən biridir. Bu, vergidən yayınmanın bir növüdür. Kassa çekinin alıcıya təqdim edilməməsi həm büdcədən verginin yayındırılmasıdır, həm də istehlakçının hüququnun pozulmasıdır: «Vergi nəzarətinin təmin edilməsi baxımından kassa aparatlarından istifadə olduqca vacibdir. Amma təəssüf ki, mağaza və ictimai iaşə obyektlərinin əksəriyyətində müştəriyə kassa çekləri təqdim olunmur. Hesab edirəm ki, vergi ödəyicilərinin NKA-dan istifadə etməməsinin iki səbəbi vardır. Birincisi, alınan mal-materiallara görə ödəyicilərin sənədlərinin olmamasıdır. Vergi Məcəlləsinin müvafiq maddələrinə əsasən, Azərbaycanda vergi dövriyyəyə uyğun qaydada hesablanır. Buna görə də sahibkar dövriyyəsinin artmaması üçün NKA-dan istifadəyə maraq göstərmir. Bunun üçün ilk olaraq idxalda şəffaflıq təmin edilməlidir. İstehsal müəssisələrinə və idxal əməliyyatları aparan təşkilatlara nəzarət gücləndirilməlidir.

NKA-lardan istifadənin yetərli olmamasının digər səbəbi təbliğat-maarifləndirmə işlərinin gücləndirilməsi zərurəti ilə bağlıdır. Fikrimcə, davamlı olaraq müxtəlif ərazilərdə vergi ödəyiciləri ilə söhbətlər aparılmalı, onların fikirləri öyrənilməli və bunun əsasında tədbirlər görülməlidir. Təbii ki, inzibati metodlar da diqqətdən qaçırılmamalıdır. Amma hər şeyi inzibati metodla tənzimləmək düzgün olmazdı. Qarşı tərəfin fikirlərini dinləyərək qarşılıqlı anlaşma ilə məsələləri həll etmək mümkündür».

# Sahibkarların hüquqlarının qorunması daim diqqət mərkəzindədir

Azərbaycan dövlətinin vergi siyasəti sahibkarlığın inkişafını stimullaşdırmağa, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə yönəldilmişdir. Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və ödəyicilərin hüquqlarının qorunmasının yüksək səviyyədə təşkili məqsədilə vergi qanunvericiliyi təkmilləşdirilmiş, vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Qanunvericilikdə edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunması ilə bağlıdır. Məcəllədə vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar təkmilləşdirilmişdir.

### Sahibkarların məlumatlandırılması və maarifləndirilməsi önəmlidir

Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müntəzəm olaraq regionlarda sahibkarlarla və onların ictimai təşkilatları ilə müxtəlif mövzularda görüşlər keçirilir, «dəyirmi masa»lar təşkil olunur. Sahibkarların rəy və təkliflərinin öyrənilməsi üçün təşkil edilən tədbirlər çərçivəsində özəl istehsalın inkişafı ilə bağlı fikirlər dinlənilir.

Ümumiyyətlə, ölkədə sahibkarların işgüzar aktivliyinin artırılması, onlara zəruri nəzəri biliklərin, vərdiş və bacarıqların aşılanması istiqamətində digər dövlət orqanları ilə birgə Bakı şəhərində və regionlarda maarifləndirici görüşlər, treninqlər keçirilir. Belə tədbirlərlə bağlı əlavə məlumat almaq üçün Çağrı Mərkəzi (195-1 - Vergilər Nazirliyi, 195-2 - İqtisadiyyat Nazirliyi, 195-3 - Maliyyə Nazirliyi, 195-5 (7) - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF, 195-6 - Dövlət Gömrük Komitəsi) və Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətindən geniş istifadə olunur.

### Əsas hədəf keyfiyyətli xidmət göstərməkdir

Vergilər Nazirliyi elektron xidmətlərin təkmilləşdirilməsi prosesini mütəmadi olaraq davam etdirir və son dövrlərdə bu, daha intensiv xarakter alıb. Hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 63 növ elektron xidmət göstərir və bu xidmətlərin növləri və əhatə dairəsi ilbəil genişlənir. Vergi ödəyicilərinin və vergi orqanı əməkdaşlarının bəyannamə və ərizə formalarının tərtibatına və yenidən tərtibatına sərf etdiyi vaxtın azaldılması, hesabat və ərizələrin vaxtında təqdim edilməsi, ödəyicilərin «ASAN imza»dan istifadəsinin stimullaşdırılması və s. istiqamətlərdə aparılan işlərin nəticəsi olaraq, nazirliyin təqdim etdiyi elektron xidmətlərdən istifadə edənlərin sayı nəzərəçarpacaq dərəcədə artıb.

Vergi ödəyicilərinin öz vergi öhdəliklərini vaxta qənaət edərək internet üzərindən nağdsız qaydada və ya yaxınlıqda olan ödəniş terminalı vasitəsilə yerinə yetirə bilmələri məqsədilə nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Vergiləri necə ödəyək» adlı bölmədən ətraflı məlumatlar almaq imkanına malikdirlər. Burada vergilərin ödənilməsi üçün yaradılan xidmətlərdən istifadə qaydaları və prosesin ardıcıllığı həm yazılı, həm də videotəsvir formasında yerləşdirilmişdir. Rəsmi internet saytı vasitəsilə vergi ödəyicilərinə yuxarı vergi orqanına şikayət etmək, habelə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi barədə təkliflər təqdim etmək mümkündür. Sahibkarların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə biznesin qurulması prosesini mərhələli şəkildə və əyani misallarla əks etdirən «Biznesə necə başlamalı?» maarifləndirici praktiki vəsait və müvafiq baner hazırlanaraq internet səhifəsində yerləşdirilmişdir.

**Rəşad SADIQOV**

# «ASAN İmza» sertifikatlarının qarşılıqlı tanınması üçün...

**«ASAN imza» sertifikatlarının qarşılıqlı tanınması istiqamətində Avstraliya dövlətinin Rəqəmsal Transformasiya Agentliyi (Digital Transformation Agency) ilə müzakirə aparılır.**

Ölkəmizin Avstraliya İttifaqı, Fici Respublikası və Yeni Zelandiyadakı səfirliyindən bildirilib ki, qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi qaydası barədə məlumatlar ingilis dilinə tərcümə edilərək səfirliyin internet informasiya ehtiyatlarında yerləşdirilib və bu barədə təbliğat-təşviqat tədbirləri həyata keçirilir. Müvafiq prosedurlar yekunlaşdıqdan sonra isə xaricdə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, xarici ölkədə daimi yaşayan Azərbaycan vətəndaşlarına, xarici ölkədə fəaliyyət göstərən hüquqi şəxslərə elektron imza sertifikatının verilməsi təmin ediləcək.

Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Rəqəmsal Ticarət Qovşağının fəaliyyətini təkmilləşdirir. Mərkəz qovşağın operatoru kimi bu prosesə öz töhfəsini verir və diplomatik korpuslarla əməkdaşlığı dərinləşdirir.

# Vergi ödəyicilərinə yüksək xidmət göstərilməsi vergi siyasətinin prioritet istiqamətlərindəndir

Əsasən, regionlarda - vergi orqanı olmayan iri şəhər və rayonlarda yerləşən vergi ödəyicilərinə xidmət mərkəzləri vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə yaradılıb.




Vergi ödəyicisi yaşadığı və ya fəaliyyət göstərdiyi ərazidəki (ərazi prinsipi nəzərə alınmaqla - PİN-kod, şifahi xidmətlər və ASAN-imza istisna olmaqla) xidmət mərkəzinə müraciət edərək vergilər barədə istənilən məlumat və izahatı əldə edə, vergi ödəyicilərinin və təsərrüfat subyektlərinin (obyektlərinin) qeydiyyatı, qeydiyyatdan çıxarılması və qeydiyyat məlumatlarının dəyişdirilməsi, vergi bəyannamələrinin, hesabatların, ərizələrin və digər sənədlərin vergi orqanına göndərilməsi, NKA-ların qeydiyyatı və qeydiyyatdan çıxarılması, hazır sənədlərin və arayışların alınması, «Asan imza»nın, habelə istifadəçi kodu, şifrə və parolun əldə edilməsi və dəyişdirilməsi, uyğunsuzluq məktublarının araşdırılması kimi vergi xidmətlərindən yararlana bilir.

2018-ci ilin ilk yeddi ayı ərzində respublikada fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərində 231.217 vergi ödəyicisi qəbul edilib, onlara 334.991 xidmət göstərilib.

2018-ci ilin iyul ayı ərzində vergi ödəyicilərinə xidmət strukturlarında qəbul edilən vergi ödəyicilərinin sayı 39.666 nəfər, göstərilən xidmətlərin sayı isə 57.103 olub.

**Fəxriyyə İKRAMQIZI**


## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa,
**Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**,
ww.taxes.gov.az və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# ƏDV tutulan əməliyyatın vaxtı

***Əlavə dəyər vergisinin (ƏDV) ödəyicisi olan müəssisə tərəfindən mallar cari ilin iyul ayının 23-də təqdim edilmişdir. Həmin mallara görə elektron vergi hesab-fakturası iyul ayının 25-də verilmiş, alıcı tərəfindən ödəmə isə avqust ayının 2-də həyata keçirilmişdir. Bu halda, ƏDV tutulan əməliyyatın vaxtı necə müəyyən edilir?***

ƏDV-nin məqsədləri üçün vergi tutulan əməliyyatın aparıldığı vaxt Vergi Məcəlləsinin (VM) 166-cı maddəsi ilə tənzimlənir. Bu maddədə, başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır. Mallar (işlər, xidmətlər) təqdim olunduqdan sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə və ödəmə 30 gün ərzində həyata keçirilmirsə, vergi tutulan əməliyyatın aparıldığı vaxt malların (işlərin, xidmətlərin) göndərildiyi və ya təqdim edildiyi vaxt hesab olunur (VM, maddə 166.1).

Vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur (VM, maddə 176.3).

***Qeyd olunanlara əsasən:***

ƏDV ödəyicisi olan müəssisənin təqdim etdiyi mallara görə ödəmə 30 gün müddətində həyata keçirildiyindən, ƏDV tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt sayılır.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Avqustun 24-də 3 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları Xaçmaz rayonunda fəaliyyət göstərən bələdiyyə təmsilçiləri ilə görüş keçirmişlər. Görüşdə vergi inzibatçılığında edilmiş yenilik və dəyişikliklər, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi, «Rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi Qaydaları», hesablanmış vergilərin vaxtında büdcəyə ödənilməsi, bələdiyyələr tərəfindən toplanılan vergilərin poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə ödənilməsi, vergilərin elektron ödənilməsi qaydaları, «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi barədə müzakirə aparılmışdır.

- Xaçmaz şəhərindəki Regional Turizm İnformasiya Mərkəzində 3 saylı ƏVİ tərəfindən «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydaları» ilə bağlı pərakəndə və topdansatış ticarət, istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüş keçirilmişdir. Görüşdə tədbir iştirakçılarına «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydaları», «Nağdsız hesablaşmalar haqqında» Qanun və digər məsələlər barədə ətraflı məlumat verilmiş, vergi ödəyicilərinin fəaliyyəti zamanı rastlaşdıqları praktiki məsələlər geniş müzakirə olunmuşdur.
Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- «Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya»da bildirilir ki, Azərbaycanda dövlət zəmanəti ilə cəlb olunmuş xarici borcun ÜDM-ə nisbəti **14** faiz, daxili borcun ÜDM-ə nisbəti isə **16,7** faizdir.
- Bu il ölkəmizdə real iqtisadi artım tempinin **2** faiz, gələn il **3,1** faiz, 2020-ci ildə **3,5** faiz, 2021-ci ildə isə **2,4** faiz təşkil edəcəyi proqnozlaşdırılır.

  2018-2025-ci illərdə «Cənub Qaz Dəhlizi» Qapalı Səhmdar Cəmiyyəti «Cənub Qaz Dəhlizi» layihəsinə **2 milyard 250 milyon** ABŞ dolları dəyərində dövlət zəmanətli kreditlər cəlb edəcək.
- Bu ilin yanvar-iyul aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala **3 milyard 234,7 milyon** manat vəsait yönəldilib.
- Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə cari ilin ilk yeddi ayında ölkədə tütün məmulatlarının istehsalında **2,9** dəfə, içki istehsalında isə **9** faiz artım müşahidə olunub.

# Nəqliyyat xidməti üzrə sadələşdirilmiş vergi

### Verginin ödəyiciləri

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) respublika ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir. Bu şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş verginin vergitutma obyekti hesab olunur.

### Verginin dərəcəsi

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün aylıq olaraq sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən olunur:

| Yaşayış məntəqələri | Ölçü vahidi | Verginin aylıq məbləği (manatla) |
|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə | 1 oturacaq yeri üçün | 1,8 manat |
| Taksi ilə sərnişin daşınması | 1 ədəd nəqliyyat vasitəsi üçün | 9 manat |
| Yük daşınması | Yük götürmə qabiliyyəti üzrə | 1 manat |

Sadələşdirilmiş verginin məbləği sərnişin və yük daşınmasının həyata keçirildiyi ərazidən asılı olaraq cədvəldə göstərilmiş vergi məbləğinə xüsusi əmsallar tətbiq etməklə müəyyən edilir. Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında həyata keçirildikdə bu əmsal 2-yə, Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Bakı şəhəri istisna olmaqla) həyata keçirildikdə isə 1,5-ə bərabər olur.

Daşıma digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında həyata keçirildikdə isə (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu istisna olmaqla) əmsal tətbiq edilmir.

### Verginin hesablanması qaydası və ödəmə müddəti

Avtomobil nəqliyyatı vasitəsi ilə sərnişin və yük daşımalarına görə aylıq sadələşdirilmiş vergi hər bir avtonəqliyyat vasitəsi üçün cədvəldə göstərilmiş sadələşdirilmiş verginin ölçü vahidini verginin aylıq məbləğinə və daşımanın həyata keçirildiyi ərazidən asılı olaraq müəyyən edilmiş əmsala vurmaqla hesablanılır, hüquqi şəxslər tərəfindən büdcə gəlirlərinin 114311 təsnifat kodu ilə, fiziki şəxslər tərəfindən isə büdcə gəlirlərinin 114321 təsnifat kodu ilə dövlət büdcəsinə ödənilir.

Oturacaqlarının sayı 17 ədəd olan mikroavtobusunuzla Bakı şəhərində sərnişin daşınmasını həyata keçirirsiniz. Bu zaman Sizin ödəyəcəyiniz verginin aylıq məbləği aşağıdakı kimi hesablanacaq:

**Oturacaqların sayı 17 ədəd olduğundan sadələşdirilmiş verginin aylıq məbləği 17 x 1,8 = 30,6 manat olacaq və Sizin fəaliyyətiniz Bakı şəhərində həyata keçirildiyindən ödəyəcəyiniz sadələşdirilmiş verginin aylıq məbləği 30,6 x 2 = 61,2 manat olacaqdır**

Vergi ödəyicisi təqvim ayının sonunadək sadələşdirilmiş verginin tam məbləğdə ödənilməsini təsdiq edən bank ödəniş sənədini ərizə ilə birlikdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumuna, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma həyata keçirildikdə isə Bakı Nəqliyyat Agentliyinə təqdim etməklə öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» alır.

Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir. «Fərqlənmə nişanı» vergi ödəyicisinin ərizəsinə əsasən 2 iş günündən gec olmayaraq verilir.

Avtonəqliyyat xidməti göstərən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

Fəaliyyəti yalnız avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarından ibarət olan vergi ödəyiciləri bu fəaliyyət üzrə vergi orqanlarına bəyannamə vermirlər.

Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərinin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir. Bu nəqliyyat vasitələri üçün heç bir haqq ödənilmədən 5 iş günü ərzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumundan «Xüsusi fərqlənmə nişanı» alınır. Bu nişanı almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarəyə verərkən, habelə digər məqsədlər üçün istifadə edərkən ən azı 1 iş günü əvvəl bu nişanı geri qaytarmalıdır.

Vergi ödəyicisi işçi heyətini və özünə məxsus yükləri daşımaq üçün yeni avtonəqliyyat vasitəsi aldıqda bu nəqliyyat vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra 5 gün ərzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumuna bu barədə müəyyən edilmiş formada məlumat təqdim edir.

Xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün «Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmır. Belə avtomobil nəqliyyatı vasitələrinin sahibləri həmin avtonəqliyyat vasitələri barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumuna, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma həyata keçirildikdə isə Bakı Nəqliyyat Agentliyinə məlumat verirlər.

### Maliyyə sanksiyaları

«Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Fəxriyyə İKRAMQIZI**

# Ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizi özünü doğruldur

**2018-ci ilin yanvar-iyul aylarında Azərbaycan ərazisindən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi vasitəsilə daşınmış yüklərin həcmi 29 milyon min ton olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz artıb. Yüklərin 62,1 faizi avtomobil nəqliyyatı, 23,7 faizi dəmir yolu nəqliyyatı, 14,2 faizi dəniz nəqliyyatı ilə daşınıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, daşınan yüklərin 95,7%-i beynəlxalq tranzit yüklərinin payına düşüb. Tranzit daşımaların həcmi 2017-cı ilin müvafiq dövrü ilə müqayisədə 30% artıb.**




İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, Azərbaycandan xarici dövlətlərə məhsul ixrac edən sahibkarlar üçün daşınma xərclərinin aşağı salınması, vergi-gömrük güzəştləri yük daşınmalarının həcminin artmasında mühüm rol oynayır. Daşınmalar sahəsində sahibkarlara verilən bir sıra imtiyazlar, gömrük-vergi güzəştləri, ixracın asanlaşdırılması həm yerli sahibkarların ixrac qabiliyyətinin, həm də Azərbaycan vasitəsilə digər dövlətlərə mal aparan şirkətlərin sayının artmasına şərait yaradır.

Daşımalarda son illər qeyri-neft məhsullarının çəkisi də artıb. Yaxın 5 ildə iqtisadiyyatda qeyri-neft sektorunun nisbətinin artırılması gözlənilir. Xəzər hövzəsində ən böyük ticarət limanı olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı-Böyük Kəsik dəmir yolunun yenidən qurulması və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi, regionlarda beynəlxalq hava limanlarının tikintisi, müasir avtomobil yolları şəbəkəsinin yaradılması ölkəmizin daşımalarda iştirak imkanlarını xeyli genişləndirir.

Nazir müavininin sözlərinə görə, Azərbaycanın tranzit imkanlarından daha geniş və səmərəli istifadə edilməsi, bu sahədə vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və bu sahədə həyata keçirilən siyasətin əlaqələndirilməsi məqsədilə yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası 2016-cı ildən bəri bir sıra mühüm addımlar atıb: tranzit prosedurları sadələşdirilib, xidmət haqları endirilib. Təkcə Qazaxıstanın Aktau və Türkmənistanın Türkmənbaşı limanları üçün tranzit gediş-gəliş xərcləri təqribən 40% aşağı salınıb. Nəticədə cari ilin ilk rübündə ötən ilin müvafiq dövrü ilə nisbətdə daşımaların həcmi 7,3 dəfə artıb.

Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, yük daşımalarının həcminin artmasında səmərəli vergi siyasəti təşviqedici rol oynayır. Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar 2016-cı il iyun ayının 1-dən 3 il müddətinə yol vergisindən azad olunub. Məqsəd Azərbaycanın transnəqliyyat marşrutlarının şaxələndirilməsi və respublikamızın beynəlxalq nəqliyyat sistemləri qovşağında mövqeyinin möhkəmlənməsinə nail olmaqdır. Bu güzəştlər həm dəmir yolu, həm də yük avtomobilləri və digər nəqliyyat vasitələri ilə daşınan yüklərin ixracına tətbiq olunur. Bu addımın atılması ölkədən xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşıma xərclərinin aşağı salınmasına və ixrac imkanlarının yaxşılaşmasına dəstək məqsədi daşıyır. Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərinin potensialından səmərəli istifadə olunması gələcəkdə bu sahənin qeyri-neft sektorunda xüsusi çəkisini artıracaq, tranzit daşımalarından dövlət büdcəsində daxilolmaların həcmi yüksələcək.

İqtisadçı bildirib ki, ixracın stimullaşdırılmasına və ixracın coğrafiyasının genişləndirilməsinə dəstək məqsədilə qanunvericiliyə edilmiş digər dəyişikliklər - «Yaşıl dəhliz» buraxılış sisteminin tətbiqi də mühüm əhəmiyyət kəsb edir. Həmin sistem gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi, məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında qurulması, eləcə də Azərbaycan məhsullarının yeni bazarlara çıxarılması üçün əlavə imkanlar yaradır.

**E.CƏFƏRLİ**

# Xarici ölkələrlə ticarət əlaqələrimiz genişlənir

İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Bakı Biznes Mərkəzində keçirilən İxracatçılar Klubunun növbəti iclası Azərbaycanın xarici ölkələrdəki ticarət evlərinin yaradılmasına və fəaliyyətinə həsr olunub. Tədbirdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən istehsalçı şirkətlərin 150-yə yaxın nümayəndəsi iştirak edib.

İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov qeyd edib ki, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, yerli məhsulların ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsi, «Made in Azerbaijan» brendinin təşviqi məqsədilə artıq 3 ölkədə Ticarət Evi fəaliyyət göstərir. Bildirilib ki, ölkəmizin ilk ticarət evi 2017-ci ildə Belarusda açılıb, Ukrayna və Latviyada isə bu il fəaliyyətə başlayıb. Ticarət evlərində Azərbaycan şirkətlərinin istehsal etdiyi müxtəlif növ məhsulların daimi sərgisi fəaliyyət göstərir. Bu sərgilərdə şərab və konyak, meyvə şirələri, kompotlar, mineral sular, tərəvəz, mürəbbələr, turşular, konservlər, bitki yağları, çay, xalça, tekstil, ipək və kosmetika malları, elektrik avadanlıqları, plastik məmulatlar və s. nümayiş olunur. 2018-ci ilin sonunadək Birləşmiş Ərəb Əmirlikləri, Polşa, Çin, Qazaxıstan və Rusiyada Azərbaycanın ticarət və şərab evlərinin açılması nəzərdə tutulur.

Tədbirin təşkilatçıları iş adamlarını Azərbaycanın xarici ölkələrdəki ticarət evlərində yaradılmış imkanlardan faydalanmağa və səmərəli əməkdaşlığa dəvət edib, bunun müvafiq ölkələrə ixracın artırılmasında əhəmiyyəti vurğulanıb.

İclasda Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində reallaşdırılan tədbirlər, iqtisadiyyatın şaxələndirilməsi, «Made in Azerbaijan» brendinin təşviqi və bu məqsədlə tətbiq edilən mexanizmlər, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində görülən işlər barədə məlumat verilib.

# Turizm yeni biznes münasibətlərinin formalaşmasına şərait yaradır

## Əcnəbilər nağdsız alış-verişə daha çox üstünlük verirlər

Son dövrlər ölkəmizdə qeyri-neft sektorunun inkişafı çərçivəsində turizmin inkişafı üçün geniş imkanlar yaranıb. Paytaxtda və bölgələrdə yaradılan müasir infrastruktur, eləcə də ölkənin qədim tarixi abidələri, füsunkar təbiəti, zəngin mətbəxi, forumlara, festivallara, idman yarışlarına, simpoziumlara yüksək səviyyədə ev sahibliyi etməyimiz dünyanın fərqli guşələrindən insanları Azərbaycana cəlb edir. Nüfuzlu xarici mətbu orqanlarda ölkəmizin turizm potensialı haqqında məqalələr dərc edilir.




Bütün bunlar özünü rəqəmlərdə də göstərir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2018-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycana dünyanın 191 ölkəsindən 1 milyon 655,3 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 31,5 faizi Rusiya Federasiyası, 19,8 faizi Gürcüstan, 10,3 faizi Türkiyə, 10 faizi İran, 3,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,4 faizi İraq, 2 faizi Ukrayna, 20,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

İlin ilk yeddi ayında Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 3,3 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 3 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,7 dəfə, Qətər vətəndaşlarının sayı 2,1 dəfə, İraq vətəndaşlarının sayı 25,1 faiz, Oman vətəndaşlarının sayı isə 16,5 faiz artmışdır. İrandan gələnlərin sayında 21,1 faiz, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayında isə 2,7 faiz azalma müşahidə edilmişdir. Ümumilikdə ölkəmizə gələnlərin demək olar ki, hər beş nəfərindən biri Körfəz ölkələrindən olmuşdur. Avropa İttifaqına üzv ölkələrdən Azərbaycana gələnlərin sayı 7,4 faiz, MDB ölkələrindən gələnlərin sayı isə 5,6 faiz artmışdır. Respublikamıza gələn turistlərin əksəriyyəti inkişaf etmiş ölkələrin maliyyə qayda və qanunlarına uyğun olaraq, nağdsız alış-veriş etməyə üstünlük verirlər. Buna görə də turizm axınının getdikcə artdığı Azərbaycanda müvafiq infrastrukturun yaradılması mühüm əhəmiyyət kəsb edir. Bir sıra xidmət sahələrinin, o cümlədən müxtəlif ticarət, əyləncə, iaşə obyektlərinin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində atılan addımlardan biri də POS-terminalların quraşdırılmasıdır. Vergilər Nazirliyi tərəfindən təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması, istifadəsi, işlək vəziyyətdə olması, ondan istifadə qaydalarının mənimsənilməsi nəzarətdə saxlanılır. POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə həm əhali, həm də vergi ödəyiciləri arasında mütəmadi məlumatlandırma işləri aparılır. Nazirliyin hazırladığı «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» vergi ödəyicilərinə obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.

«Nağdsız hesablaşmalar haqqında» Qanunun 2017-ci ildən qüvvəyə minməsi ilə əlaqədar bir sıra qanunvericilik aktlarına, o cümlədən «Turizm haqqında» Qanuna dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən, turagentlərə ödəmələr yalnız nağdsız qaydada həyata keçirilir.

Görülən işlərin nəticəsi konkret rəqəmlərdə də özünü göstərir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına əsasən, bu ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 620,4 milyon manat təşkil etmişdir. Bu göstərici 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 113 milyon manat və ya 22,3 faiz çoxdur.

**Rəşad SADIQOV**

# İşsizlikdən sığorta ödənişləri

Azərbaycanda vətəndaşların, xüsusilə iş yerini itirmiş şəxslərin sosial hüquqlarının qorunmasını müəyyən edən proqram və konvensiyalar sırasına biri də əlavə olunub: iqtisadi cəhətdən böyük inkişaf yolu keçmiş ölkələrin əksəriyyətində tətbiq edilən «İşsizlikdən sığorta haqqında» Qanun Azərbaycanda da qəbul edilib. 2018-ci il yanvarın 1-dən qüvvəyə minmiş bu qanun müxtəlif səbəblərə görə iş yerini itirmiş vətəndaşlar üçün bir sıra mühüm üstünlüklər yaradır.

Qanuna əsasən, hər bir şəxs iş yerini itirdiyi andan yeni iş tapanadək həmin dövrdə itirdiyi gəlirlərinin qarşılığı olaraq tam və ya qismən kompensasiya almaq hüququna malikdir. Bu hüquq hər hansı dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, yaxud işçilərin sayı və ya ştatların ixtisarından sonra məşğulluq orqanında işsiz kimi qeydiyyata alınan şəxslərə aiddir. İcbari qaydada həyata keçirilən bu sığorta sistemi həm müəssisənin əməyin ödənişi fondundan, həm də işçinin əməkhaqqından 0,5 faiz həcmində tutulur. Minimum 3 il sığorta stajına malik şəxslər bu yenilikdən yararlanmaq hüququ əldə edir.

***Özündən asılı olmayan səbəblər üzündən iş yerini itirmiş şəxslər işsizlikdən sığorta sistemindən bəhrələnmək üçün hansı prosedurlardan keçməlidirlər?***

Sualı Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov şərh edir:

«Bu məsələ «İşsizlikdən sığorta haqqında» Qanunda, eləcə də Nazirlər Kabinetinin təsdiq etdiyi hüquqi-normativ aktlarda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq təlimatlarında əhatəli şəkildə öz əksini tapıb. Mövcud qaydalara əsasən, sığorta ödənişi ilkin müraciət zamanı 6 ay, təkrar müraciət zamanı isə 3 ay müddətinə təyin edilir. İşsizliyə görə sığorta ödənişləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibində yaradılan İşsizlikdən Sığorta Fondu tərəfindən verilir. Yeni qanunun tətbiqi ilə əlaqədar olaraq, indiyədək verilən işsizlik müavinətləri də yeni qaydalarla tənzimlənəcək və həmin fond tərəfindən maliyyələşdiriləcək. Amma işsizlikdən sığorta ödənişləri işəgötürənlə əmək müqaviləsinin müddəti başa çatmış şəxslərə şamil edilməyəcək. Çünki yeni qanunda belə hallar üçün işsizlik sığortasından yararlanmaq nəzərdə tutulmayıb. Yalnız dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, yaxud işçilərin sayının və ya ştatların ixtisar edilməsi nəticəsində işini itirən və işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar fondun imkanlarından faydalana biləcəklər. Bu standartlara uyğun olmayan işsizlər isə fondun digər imkanlarından yararlana bilərlər».

«İşsizlikdən sığorta haqqında» Qanunun tələblərinə əsasən, özündən asılı olmayan səbəblərə görə iş yerini itirmiş hər bir şəxs üçün sığorta ödənişinin verilmə müddəti 9 aydan artıq ola bilməz. Əgər işsiz iş yerini itirdiyi gündən etibarən 24 ay ərzində münasib işlə təmin edilməzsə, bir dəfə təkrar müraciət edərək yenidən minimum sığorta ödənişi almaq hüququna malikdir. Əgər ailədə həm ər, həm də arvada sığorta ödənişi təyin edilirsə, bu zaman onlardan yalnız birinə əsas sığorta ödənişinə əlavəni almaq hüququ şamil edilir.

S.Məmmədov qeyd edib ki, bu proseslə hazırda 5 faiz səviyyəsində olan işsizliyin aradan qaldırılacağı gözlənilir. İşsizlikdən sığorta sisteminin məqsədi işsiz vətəndaşların uzun müddət sığorta ödənişi almasını yox, onun əmək bazarına təkrar qayıtmasını təmin etməkdir. Yeni qanuna görə, müəssənin ləğvi və ştatların ixtisarı nəticəsində işsiz qalan şəxslər müraciət etdikdə onlara iki müvafiq iş təklif olunacaq, təklifi işsiz şəxs tərəfindən rədd edilərsə, o, müavinət almayacaq. Müraciət edən şəxslərə müvafiq iş təklif olunmadıqda, onlar müavinət almağa iddia edə bilərlər. Lakin onların iddia etmələri bunun mütləq müavinət almaqla nəticələnəcəyi demək deyil. Bunun üçün işsizlikdən sığorta ödənişlərinə iddia edən şəxsin tələbləri qanunda göstərilən şərtlərə tam cavab verməlidir.

Xatırladaq ki, İşsizlikdən Sığorta Fondunun maliyyə mənbəyi işəgötürənlər və işçilərdir. İşəgötürənlər əmək fondunun 0,5 faizi, işləyənlər isə maaşlarının 0,5 faizi məbləğində hər ay fonda vəsait ödəyəcəklər. 2018-ci ildə fondun büdcəsi təxminən 89 milyon manat səviyyəsində hesablanıb. Həmin vəsaitin 37,6 faizi işsizliyə görə sığorta ödənişlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulub ki, bu da ötən il bu məqsədlərə ayrılan vəsaitdən 1,9 dəfə çoxdur.

**Elxan SALAHOV**

**İşsizliyə görə sığorta müavinətini almaq üçün müəyyən edilmiş əsas şərtlər:**

- İşsizliyə görə sığorta müavinətini almağa iddialı vətəndaşın sığorta stajı olmalıdır;
- Bu müavinətə iddialı şəxsin 3 ildən 5 ilədək sığorta stajı olduqda alacağı müavinətin məbləği işlədiyi dövrdə aldığı əməkhaqqının 50 faizi səviyyəsində müəyyən edilir;
- Bu müavinətə iddialı şəxsin 5 ildən 10 ilədək sığorta stajı olduqda alacağı müavinətin məbləği işlədiyi dövrdə aldığı əməkhaqqının 55 faizi səviyyəsində müəyyən edilir;
- İşsizlikdən sığorta ödənişlərinə iddialı şəxsin sığorta stajı 10 ildən çox olduqda onun alacağı aylıq məbləğ orta aylıq əməkhaqqının 60 faizi məbləğində olmalıdır.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan Prezidentinin sərəncamına uyğun olaraq, ölkədə biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın fəaliyyəti ilə bağlı internet portalı yaradılacaq.

«Made in Azerbaijan» brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən növbəti ixrac missiyası avqustun 29-dan sentyabrın 3-dək Çin Xalq Respublikasının Urumçi şəhərində təşkil olunacaq.

Gələn ay Azərbaycanda «Iteca Caspian» və «Caspian Event Organisers» sərgi şirkətləri tərəfindən təşkil edilən ixtisaslaşmış ticarət-sənaye sərgiləri mövsümü start götürəcək.

Noyabrın 22-23-də Bakıda IX Azərbaycan Mikromaliyyə Konfransı keçiriləcək.

«Qırmızı körpü» sərhəd-keçid məntəqəsində tikilmiş Ticarətin Asanlaşdırılması Mərkəzi yaxın günlərdə istifadəyə veriləcək.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Sadələşdirilmiş vergi imtiyaza çevrilməməlidir

## Bəzi sahibkarlar sadələşdirilmiş verginin ödəyicisi kimi qeydiyyatdan keçməklə «kiçik biznes» kateqoriyasının üstünlüklərindən sui-istifadə etməyə çalışırlar

Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı özəl sahibkarlığın inkişafından çox asılıdır. Qeyri-neft sektorunun inkişafının prioritet elan edildiyi indiki dövrdə vergi siyasətində çevik və şəffaf mexanizmlərin tətbiqi dövrün zəruri tələbinə çevirib. Bu şəraitdə ən vacib şərtlərdən biri vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada və əməkdaşlığa əsaslanmasıdır. 1 avqust 2018-ci il tarixə olan məlumata görə, hazırda Azərbaycanda 939 min 149 vergi ödəyicisi var ki, onların da əksəriyyəti sadələşdirilmiş vergi ödəyiciləridir. Onların təqdim etdiyi vergi bəyannamələrindən görünür ki, həmin vergi ödəyicilərinin böyük əksəriyyətinin dövriyyəsi 100 min manatdan aşağıdır. Sadələşdirilmiş vergilərin ümumi vergi daxilolmalarındakı payının az olması həm də onunla izah edilə bilər ki, bu sistem bəzi sahibkarlar üçün dövriyyəni azaltmaq üçün sui-istifadə alətinə çevrilib. Bununla da onlar özlərini «kiçik biznes» kateqoriyasına aid edir və vergilərdən yayınmağa çalışırlar.

### Mövcud qanunvericiliyə əsasən, sadələşdirilmiş vergi ödəyiciləri bunlardır:

- mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişindaşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər;
- idman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər;
- mülkiyyətində olan torpaq, yaşayış (fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələri istisna olmaqla) və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər (torpaq, yaşayış və qeyri-yaşayış sahəsi hədiyyə, maddi yardım və miras kimi vergi ödəyicisinin ailə üzvlərindən alındıqda, «Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Qanuna əsasən kompensasiya ödənildikdə, ər və arvad (və ya keçmiş ər-arvad) arasında verildikdə istisna olmaqla);
- fəaliyyətləri zamanı işçi cəlb edən fiziki şəxslər istisna olmaqla, toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət, fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət, çəkməçi, pinəçi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və digər analoji işlər, nəqqaşlıq emalatxanalarının fəaliyyəti ilə məşğul olan şəxslər (aylıq sabit vergi məbləği üzrə).

Həmçinin əlavə dəyər vergisi (ƏDV) məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər, habelə vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və ya ictimai iaşə fəaliyyəti göstərənlər, bina tikintisi ilə məşğul olanlar da sadələşdirilmiş verginin ödəyicisi ola bilərlər.

### Sadələşdirilmiş verginin ödəyicilərinin öhdəlikləri

Sadələşdirilmiş verginin ödəyicisi olan və ödəmə mənbəyində vergi tutan hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərə, habelə qeyri-dövlət pensiyaları və digər ödəmələri (rezident müəssisələrə və ya qeyri-rezidentin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilən icarə haqqı və royalti istisna olmaqla) verərkən onlardan ödəmə mənbəyində vergini tutmağa borcludurlar. Sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən fiziki şəxslərə muzdlu işlə əlaqədar hesablanmış aylıq gəlirdən gəlir vergisi aylıq hesablanmalı və növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməli, bu barədə müvafiq bəyannamə hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir. Qeyri-dövlət pensiyaları və digər ödəmələr (rezident müəssisələrə və ya qeyri-rezidentin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilən icarə haqqı və royalti istisna olmaqla) verilərkən qeyd edilən gəlirdən vergi tutulmalı, tutulmuş vergi gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməli, bu barədə müvafiq bəyannamə isə həmin müddətdə vergi orqanına təqdim edilməlidir.

### Vergidən yayınmanın məsuliyyəti

Sadələşdirilmiş verginin ödəyicilərinə vergi qanunvericiliyinin pozulması hallarına görə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq aşağıda göstərilən maliyyə sanksiyaları və faizlər tətbiq edilə bilər:

- sadələşdirilmiş verginin hesabatını və ya vergi öhdəliyinin yaranmaması haqqında arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən 40 manat məbləğində;
- aktivləri barədə məlumatı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən 100 manat məbləğində;
- verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılıbsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılıbsa vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında;
- təqvim ili ərzində nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə:
  - birinci dəfə yol verildikdə - 400 manat;
  - ikinci dəfə yol verildikdə - 800 manat;
  - üç və daha çox dəfə yol verildikdə - 1200 manat məbləğində cərimə müəyyən edilir.

Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan sadələşdirilmiş vergitutma metodunu seçmiş ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olanlar bu qaydaları birinci dəfə pozduqda 2000, ikinci dəfə 4000, üç və daha çox pozduqda isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur.

Sadələşdirilmiş vergi müəyyən edilmiş müddətdə ödənilmədikdə, ona ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir il müddətindən çox olmamaq şərtilə, ödənilməmiş vergi məbləğinin 0,1 faizi miqdarında faiz hesablanır.

> Sahibkarlıq fəaliyyətindən gəlir əldə edən və vergi uçotuna sadələşdirilmiş verginin ödəyicisi kimi alınan şəxs verginin məbləğini hesabat rübü ərzində təqdim edilmiş mallara (işlərə xidmətlərə) və əmlaka görə əldə edilmiş hasilatın, habelə satışdankənar gəlirlərin həcminə Bakı şəhərində 4 faiz, digər regionlarda, habelə Naxçıvan Muxtar Respublikasında 2 faiz tətbiq etməklə hesablayır. Ticarətlə məşğul olanlar 6 faiz, ictimai iaşə xidməti göstərən sahibkarlar isə 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyiciləridir. Hesablanmış verginin məbləği hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq «Sadələşdirilmiş vergi bəyannaməsi» ilə bəyan edilir və həmin tarixdən gec olmayaraq dövlət büdcəsinə ödənilir.

**Elxan SALAHOV**

---

## 2018-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin avqust ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi notariuslar tərəfindən **cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2018-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).
- **Xüsusi notariusların 2018-ci ilin avqust ayı üzrə hesabladıqları gəlir vergisi cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Qeyd: 20.10.2018-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən, 2018-ci ilin 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin son müddəti 22.10.2018-ci il tarixinə keçirilmişdir.**

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

---

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

---

# «Asan imza» istifadəçi İD-sinin dəyişdirilməsi

«Elektron imza və elektron sənəd haqqında» Qanunun müddəalarına əsasən ASXM-dən Asan imza əldə etmiş şəxslər bu elektron xidmətdən istifadə edə bilərlər. Bu xidmətin göstərilməsi üçün hər hansı sənəd tələb olunmur.

İstifadəçi İD-sinin dəyişdirilməsi barədə məlumat internet və ya vergi orqanı tərəfindən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə ASXM-in məlumat bazasına göndərilir və istifadəçi İD-si dəyişdirilir. İstifadəçi çağrı mərkəzinə müraciət etməklə xidmətdən istifadə etdikdə dəyişikliklə bağlı məlumat istifadəçinin Asan imzanın bağlı olduğu mobil telefon nömrəsinə göndərilir.

**Elektron xidmətin təqdim olunma ünvanı:**

- http://www.taxes.gov.az;
- http://www.e-gov.az;
- http://www.dxr.az;
- AsanDoc proqram təminatı;
- Çağrı Mərkəzi (195-1).

Xidmətdən istifadə üçün istifadəçi «Asan imza»ya malik olmalıdır. İstifadəçi https://asanimza.az internet səhifəsindən yüklənmiş AsanDoc proqram təminatında müvafiq xanaları doldurur və mobil telefonda PİN 1 daxil etməklə əməliyyatı təsdiqləyir. Əməliyyatın sonunda ekranda İstifadəçi İD-sinin müvəffəqiyyətlə dəyişdirilməsi barədə məlumat əks olunur.

İD-nin Çağrı Mərkəzi vasitəsilə dəyişdirilməsi üçün mərkəzin sorğularını yerinə yetirmək lazım gəlir. İstifadəçiyə mövcud və yeni təqdim olunan İstifadəçi İD-si barədə SMS göndərilir. İstifadəçi SMS-lə tanış olur və razılığını Çağrı Mərkəzinin təmsilçisinə bildirir. Bundan sonra mobil telefonda yoxlama kodunu təsdiqləyir və «Asan imza» PİN 2 kodunu daxil etməklə imzalayır.

Əməliyyat başa çatdıqdan sonra istifadəçinin Asan imzanın bağlı olduğu mobil telefon nömrəsinə İstifadəçi İD-sinin dəyişdirilməsi barədə SMS göndərilir. İstifadəçinin İnternet Vergi İdarəsində elektron qutusu olduğu halda «Onlayn kargüzarlıq» səhifəsinə əməliyyat tarixçəsi barədə məlumat göndərilir. İstifadəçi İD-sinin dəyişdirilməsi əməliyyatı istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə dəyişiklik aparılır.

### Sorğunun yerinə yetirilməsindən imtina halları

İstifadəçi İD-sinin dəyişdirilməsindən «Asan imza»nın bağlı olduğu mobil telefon nömrəsi səhv bildirilərsə, mobil nömrədə «Asan imza» xidməti aktiv olmazsa, istifadəçinin «Asan imza» sahibi olmadığı müəyyən edilərsə, yeni İstifadəçi İD-si dəqiq bildirilməzsə, xidmət yekunlaşdırılmadan əlaqə kəsildiyi zaman imtina edilir.

**Fəxriyyə İKRAMQIZI**

---

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Yaponiya hökuməti vergi islahatı planlarını qəbul edib

Yaponiyanın Nazirlər Kabineti vergi islahatı ilə bağlı qanun layihəsini təsdiq etmişdir və sənəd hazırda müzakirə üçün ölkə parlamentinə təqdim olunmuşdur. 2017-ci ildən bəri gündəlikdə olan qanun layihəsinə əsasən, işçilərinin əməkhaqqı üç faizdən artıq olan şirkətlərin ödəyəcəkləri korporativ verginin dərəcəsi 25 faizə endiriləcək. Öz məhsuldarlığını artırmaq üçün sərmayə qoyan şirkətlər üçünsə korporativ verginin dərəcəsi 20 faiz müəyyənləşdiriləcək. Vergi güzəştləri gələn maliyyə ilindən - 2019-cu ilin aprelindən tətbiq olunmağa başlayacaq və üç il davam edəcək.

Qanun layihəsində nəzərdə tutulan digər tədbirlərə tütün məhsulları üçün 2018-ci ilin oktyabrından rüsumların qaldırılması, eləcə də ölkədən çıxan insanlar üçün 2019-cu ilin əvvəlindən adambaşına 1000 yen (9,9 ABŞ dolları) yeni verginin tətbiq edilməsi daxildir.

Şəxsi vergi üzrə 2020-ci ildən qüvvəyə minməsi təklif edilən dəyişikliklər illik gəliri 8,5 milyon yendən (77.394 ABŞ dolları) artıq olan işçilərdən tutulan vergilərin artırılmasını, eləcə də şirkət əməkdaşları üçün vergi çıxılmalarının azaldılmasını əhatə edir.

# Xorvatiya ƏDV-nin dərəcəsini azaltmaq planını təxirə salıb

Xorvatiya hökumətinin yaydığı açıqlamada 2020-ci ilə qədər planlaşdırılmış əlavə dəyər vergisinin (ƏDV) aşağı salınmasının təxirə salındığı bildirilmişdir. Bununla belə, gələn ildən bəzi əsas mallar üçün bu verginin dərəcəsinə yenidən baxılacaq.

Hazırda 25 faiz olan ƏDV dərəcəsinin gələn il yanvarın 1-dən 24 faizə endirilməsi nəzərdə tutulmuşdu, lakin bu addımın bir il gec - 2020-ci il yanvarın 1-dən atılacağı qərara alınmışdır. 13 faizlik aşağı salınmış tarif isə əvvəlki kimi ət, balıq, meyvə və göyərti kimi məhsullara tətbiq olunacaq.

Xorvatiyada ƏDV-nin üç dərəcəsi tətbiq edilir: 25 faizlik standart dərəcə (bu, Avropa İttifaqında Macarıstandan sonra ən yüksək göstəricidir), 13 faizlik dərəcə və 5 faizlik dərəcə. 5 faizlik dərəcə müəyyən çap nəşrlərinə, mədəni tədbirlərdə iştiraka, mehmanxanada qalmağa, dəfn xidmətlərinə, elektrik enerjisi tədarükünə, tullantıların idarə edilməsi sahəsində bəzi xidmətlərə, qida yağlarına və piylərə, uşaq yeməklərinə, eləcə də heyvan yemlərinə tətbiq edilir.

# BVF-dən Belçikaya vergi islahatı planı təklifi



Beynəlxalq Valyuta Fondu (BVF) Belçika hökumətinə iqtisadi artım siyasətinə yönəldilmiş vergi islahatına getməyi təklif etmişdir. BVF-nin bu ölkə üçün hazırladığı yeni hesabatda bildirilir ki, Belçika təklif edilən korporativ mənfəət vergisinin aşağı salınmasından yaranacaq itkinin yerini əlavə tədbirlərlə doldurmalı və bununla da vergi sistemində qalan uyğunsuzluqlar aradan qaldırılmalı, vergi siyasətinin yeni variantları irəli sürülməlidir.

Verilmiş təkliflərə əsasən, hazırda korporasiya üçün, «həmrəylik töhfəsi» adlandırılan yığım da daxil olmaqla, 33,99 faiz təşkil edən korporativ vergi 2018-ci ildə 29 faizə, 2020-ci ildə isə 25 faizə qədər aşağı salınacaq. Bundan əlavə, «həmrəylik töhfəsi» də tədricən azaldılacaqdır. Gələn il bu yığım 3 faizdən iki faizə salınacaq, 2020-ci ildə isə ümumiyyətlə ləğv ediləcək.

BVF-nin hesabatında kiçik müəssisələr üçün korporativ verginin dərəcəsinin aşağı salınması da nəzərdə tutulmuşdur. Hazırkı şərtlərə görə kiçik müəssisələr mənfəətlərinin ilk 100 min avrosu üçün 25 faizlik vergi ödəyirlər. Təklifə əsasən, bu verginin dərəcəsi 20 faizə endiriləcək. Bununla yanaşı, kiçik şirkətlərin hər biri mənfəət vergisinin azaldılmasına iddia etmək üçün öz direktoruna ildə ən azı 45 min avro mükafat ödəməli olacaq.

# Vergi Məcəlləsinin layihəsi gələn ay müzakirəyə çıxarılacaq

Moldova parlamentinin nümayəndələr palatası sədrinin müavini Boleslav Pirştuk mətbuata açıqlama verərək bildirmişdir ki, artıq hökumət Vergi Məcəlləsinin layihəsi üzərində işini tamamlamaq üzrədir və layihə tezliklə deputatların müzakirəsinə veriləcək. Onun sözlərinə görə, layihə 2019-cu il üçün bütöv bir büdcə paketini təşkil edəcək və iqtisadi islahatlar üçün son dərəcə ciddi təməl yaradan sənəddir.

O da qeyd edilmişdir ki, Vergi Məcəlləsinin layihəsi ictimaiyyət tərəfindən ən çox müzakirə edilmiş sənəddir. Hər kəs hüquqi şərtlərin yumşaldılmasını gözləyir, vacib olansa büdcənin doldurulması mexanizmlərinin düzgün tapılması və işlədilməsidir. «Bizim hədəfimiz ölkənin büdcəsinin gücləndirilməsi və ümumi daxili məhsulunun artırılmasıdır. Ölkəmizin iqtisadi gücünü artırmaq barədə düşünmək lazımdır. Biz bu məsələni həll edən kimi, dayanıqlı iqtisadi artıma nail olan kimi sosial qanunvericiliyin qəbul edilməsi də asan olacaq.

Kiçik və orta biznes barədə isə bildirilmişdir ki, qanunvericilik nəzarət tədbirləri ilə həddən ziyadə yüklənmişdir. «Hamı, xüsusi olaraq da biznes ictimaiyyəti eyni mövqedədir ki, bu sahənin yükü maksimum dərəcədə azaldılmalıdır. Qanunvericiliyin anlaşılan, şəffaf olması üzərində işləməliyik, elə etməliyik ki, bizneslə məşğul olanlar daha az risklərlə qarşılaşsınlar. Bu meydanı genişləndirmək üçün maksimum şərtlər yaradılmalıdır».

# Cənubi Koreya turistləri ƏDV-dən azad edib

2018-ci ildə Cənubi Koreyadakı otellərdə gecələmiş turistlər mehmanxana xərclərinin məbləğindən 10 faizlik əlavə dəyər vergisini geri ala biləcəklər.

Koreya hökuməti əvvəllər mövcud olmuş (məsələn, 2014-cü ilin aprel ayından 2015-ci ilin may ayına qədər) qaydaların yenidən tətbiqi ilə bağlı qanun layihəsinin ratifikasiya olunduğu barədə məlumat yaymışdır.

Qanunun qəbulundan sonra xarici turistlərə güzəşt hüququnun verilməsi üçün mehmanxana biznesi mehmanxanada qalmaq qiymətlərini 10 faiz artırmaqla vergi güzəştlərini kompensasiya etməli olmayacaqlar.

# Offşor hesabların sahiblərinin adları açıqlanacaq

Tezliklə Böyük Britaniyada yaradılacaq ictimaiyyət üçün açıq reyestrdə tarixdə ilk dəfə olaraq offşor şirkətlərin benefisiarlarının adları göstəriləcək. Ekspertlərin rəyinə əsasən, belə bir addımın atılması bir sıra varlı sərmayəçilərin kapitalının ölkədən çıxarılmasına səbəb olacaq, bununla belə, Britaniya aktivlərindən pulların geniş miqyasda əks axını gözlənilmir.

İyulun sonunda Britaniya parlamenti ictimaiyyət üçün açıq reyestrin yaradılması ilə bağlı yeni qanun layihəsini müzakirəyə çıxarmışdır. Qanun layihəsinə əsasən, xarici müəssisələr öz benefisiarlarının, o cümlədən əmlakın faktiki sahiblərinin adlarını göstərməli olacaqlar. İnformasiyanı gizlətməyə və ya saxta məlumat verməyə cəhd edən şirkətlər cərimələnəcəklər. Belə şirkətlərin sahiblərinə isə çirkli pulların yuyulmasına şərait yaratdıqlarına görə beşillik həbs cəzası veriləcək.

Gözlənildiyinə görə, bu qanun layihəsini parlament təsdiqləyəndən sonra reyestr 2021-ci ildən fəaliyyətə başlayacaq. Böyük Britaniyanın özü isə dünyada ilk dəfə belə bir hüquqi alət tətbiq edən ölkə olacaq.

Qeyd edək ki, 2016-cı ildən bu ölkədə şirkətlərə nəzarət edən şəxslərin reyestri fəaliyyət göstərir, lakin həmin qeydiyyat sistemi yalnız Britaniyaya məxsus hüquqi şəxslərə tətbiq edilir.

# CİAT ekspertləri transfert qiymətqoymanın auditi üzrə təlimatı müzakirə edirlər

Amerika Beynəlxalq Vergi Administrasiyaları Mərkəzi (CIAT) bu təşkilata üzv dövlətlərin vergi administrasiyalarının istifadə etmələri üçün transfert qiymətqoymanın auditi üzrə təkmilləşdirilmiş və genişləndirilmiş təlimat hazırlayır. CIAT-a hazırda 34 ölkə, o cümlədən İspaniya, Portuqaliya, Fransa, İtaliya, Hollandiya, Keniya daxildir. Anqola, Hindistan, Mərakeş və Nigeriya isə təşkilatın assosiativ üzvləridir.

Yeni təlimat bu ölkələrin vergi xidmətlərinə beynəlxalq vergi mübahisələrinin həllində istifadə etmək üçün vergi və transfert qiymətqoyma auditlərinin aparılmasının daha təkmil metodlarını təqdim edəcək. Sənədin hazırlanması üçün 2018-ci ilin əvvəlində 25 nəfərdən ibarət beynəlxalq ekspertlər qrupu müəyyənləşdirilmişdi. Qrup CİAT-ın transfert qiymətqoyma üzrə 140 səhifəlik məxfi araşdırmasını nəzərdən keçirəcək və mümkün olduğu hallarda zəruri dəyişikliklərlə bağlı razılaşma əldə edəcək.

Təşkilat maraq doğuran məsələlərlə bağlı tezliklə konsensusa gəlmək və üzv ölkələrin sənədin layihəsi ilə 2018-ci ilin oktyabrına qədər tanış olmalarına şərait yaratmaq üçün müzakirə prosesini koordionasiya edəcək. Yeni təlimatın geniş ictimaiyyətə gələn ilin fevral ayında təqdim ediləcəyi gözlənilir. Ekspert qrupunun iclası 8-10 oktyabrda Qvetamalada keçiriləcək. Qrupun tərkibinə 15 ölkəni təmsil edən mütəxəssislər daxildir. Onların əksəriyyətinin transfert qiymətqoyma üzrə 20 ildən artıq iş təcrübəsi var. Qrup üzvləri aparıcı konsultasiya şirkətlərinin nümayəndələri və bu sahədə çalışan elmi mütəxəssislərdən ibarətdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Öz ehtirasını təmin etmək üçün başqasına əziyyət vermək, onu incitməkdən ibarət psixi pozğunluq; 2.Rusiya Federasiyasının Xantı-Mansiysk Muxtar Dairəsində çay; 3.Səhmdar cəmiyyətə təsisçilər tərəfindən səhmlərin dəyərinin ödənişi əvəzində təqdim edilən (verilən) əmlak; 4.İnduizmdə müharibə tanrısı; 5.Qərb yarımkürəsində tropik dəniz; 6.İlk dəfə 1960-cı ildə Çexoslovakiyada istehsal olunmuş qazlı alqokolsuz içki; 9.Azərbaycan musiqi tarixində ilk romansların və uşaqlar üçün musiqi əsərlərinin müəllifinin adı; 13.Azərbaycan musiqili komediya sənətinin inkişafında mühüm xidmətləri olmuş bəstəkarın adı; 15.Almaniyada şərab istehsalı üçün yetişdirilən üzüm növlərindən biri; 16.Yakut mifologiyasında balıqların qoruyucu ruhu; 17.Düşmənə zərbə endirmək məqsədilə qoşunların və ya donanmanın bir yerdən başqa yerə hərəkəti və toplanması; 18.Əsərlərində, məktublarında adını gizlədən müəllif; 20.Cütdırnaqlılar dəstəsinə aid fəsilə və həmin fəsiləni təmsil edən heyvan; 21.Böyük Antil adalarında ölçüsünə görə ikinci iri ada. **Soldan sağa:** 1.Bir dilə xas olan cümlə quruluşu və cümlədə sözlərin birləşməsi üsulu; 5.ABŞ-ın Minnesota ştatında şəhər; 7.Xarici dövlətlərlə əlaqə saxlamaq və yaxud müzakirələr aparmaq üçün hər hansı dövlət tərəfindən vəkil edilmiş vəzifəli şəxs; 8.«O olmasın, bu olsun» filmində Sərvər obrazını canlandıran aktyorun adı; 10.İsmayıllı rayonunda kənd; 11.Səs ölçü vahidi; 12.Türk mifologiyasında yaradıcı və baş Tanrı; 14.Mis üzərində iynə ilə cızılmış və sonra basma üsulu ilə yaranmış qravüra; 19.Ortaq ideya ətrafında birləşən və ümumi maraqlara, mülkiyyətə, ehtiyatlara, ortaq gəlirə və iş yerinə sahib insanların birlikdə yaşamağa qərar verdikləri icma növü; 21.«Dədə Qorqud» filmində Dədə Qorqud obrazını canlandıran aktyorun adı; 22.Türkiyənin pul vahidi; 23.Coğrafi qütbləri yer səthindən keçməklə birləşdirən ən qısa xətt; 24.At ayaqqabısı; 25.İngiltərənin Qərbində böyük şəhər.



*«O olmasın, bu olsun» filmindən epizod.*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Feyxoa; 2.Lambada; 3.Nənni; 4.Rialto; 5.Furye *(Jan Batist Jozef)*; 6.Vazari *(Corco)*; 9.Duet; 13.Lalə; 15.Mariott *(Edm)*; 16.Vestel; 17.Kvorum; 18.Dekabr; 20.Salem; 21.Tokio. **Soldan sağa:** 1.Filantrop; 5.Fav; 7.Yamantau; 8.Araz; 10.Okapi; 11.Taumetr; 12.Yallı; 14.Ştamp; 19.Eksklav; 21.Turne; 22.Tala; 23.Fruktoza; 24.Lim; 25.Komposter.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Beynəlxalq Cüdo Federasiyası Bakıda konfrans keçirəcək




Beynəlxalq Cüdo Federasiyasının (IJF) gender bərabərliyi üzrə komissiyası cüdoda qadınlar və kişilər arasında bərabərlik məsələlərinə dair ilk konfransı Bakıda keçirməyi planlaşdırır. Bu barədə qurumun rəsmi saytında xəbər verilir.

Tədbir dünya çempionatından əvvəl qurumun yarışlar üzrə meneceri Liza Allanın sədrliyi ilə təşkil ediləcək. Konfransda IJF-in prezidenti Marius Vizerin, rumıniyalı deputat Rozalia-İbolya Bironun, Xorvatiya Cüdo Federasiyasının prezidenti Sanda Çorakın, Avstraliya Cüdo Federasiyasının prezidenti Keyt Korkerinin, yaponiyalı Akiko Amanonun, braziliyalı Yuko Fujinin, kosovolu Driton Kukanın və Maylinda Kelmendinin, avstriyalı Sabrina Filzmoserin və digər şəxslərin iştirakı planlaşdırılır. Konfransın sentyabrın 19-da Bakıda, «Hilton» otelində keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, cüdo üzrə dünya çempionatı sentyabrın 20-27-də paytaxtımızda, Milli Gimnastika Arenasında təşkil olunacaq.

# Avropa çempionatında debüt

Beynəlxalq Polo Federasiyasının və İtaliyanın Atçılıq İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə sentyabrın 20-dən 30-dək İtaliyanın Siena şəhərində Avropa birinciliyi keçiriləcək. Turnirdə Avstriya, Almaniya, Fransa, Niderland, Slovakiya, İspaniya, İsveçrə, İrlandiya, İtaliya və Azərbaycan yığma komandaları iştirak edəcəklər.

Polo üzrə Azərbaycan yığma komandası ilk dəfə iştirakçısı olacağı Avropa çempionatına hazırlıq üzrə təlim-məşq toplanışlarını yekunlaşdırıb. Almaniyanın Mühlen şəhərində keçirilən təlim-məşq toplanışlarında milli yığmamız peşəkar və təcrübəli klub komandaları ilə sparrinq qarşılaşmaları keçirib, idmançılarımız qitə birinciliyi ərəfəsində zəruri oyun təcrübəsi əldə ediblər. Hazırda Bakıda səfər öncəsi son məşqlərini keçirməkdə olan milli komandamızın Avropa çempionatında əsas hədəfi ən yüksək pillə uğrunda mübarizə aparmaqdır.

# Beynəlxalq turnirdə üç medal

Çeçenistan Respublikasının paytaxtı Qroznı şəhərində kişi boksçular arasında təşkil olunan ənənəvi beynəlxalq turnirə yekun vurulub. Çeçenistan Respublikasının mərhum prezidenti Əhməd Kadırovun xatirəsinə həsr olunmuş sayca 10-cu turnirdə Azərbaycanın yığma komandası 1 qızıl və 2 bürünc medal qazanıb. Komandamızın heyətində Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək çempion tituluna yiyələnib. O, finalda hindistanlı Kumar Satişi 3:2 hesabı ilə məğlub edib. Digər boksçularımızdan Araz İmaməliyev (52 kq) və Cəbrayıl Yelikov (81 kq) üçüncü yeri tutublar. Yığmamız komanda hesabında dördüncü yerdə qərarlaşıb. İlk pilləyə beş qızıl, altı gümüş və yeddi bürünc medal qazanan Rusiya millisi sahib olub. Qeyd edək ki, turnirdə 17 ölkədən 105 boksçu qüvvəsini sınayıb.

# Dünya çempionatı öncəsi əla nəticə

Bədii gimnastika üzrə dünya çempionatından əvvəl Rusiyanın Kazan şəhərində keçirilən «Challenge» seriyasına aid sonuncu dünya kuboku yarışına yekun vurulub.

Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, turnirdə ölkəmizi qrup proqramında təmsil edən Aliyə Paşayeva, Siyana Vasileva, Ayşən Bayramova, Diana Doman və Zeynəb Hümbətova iki ip və üç topla icra etdikləri kompozisiyaya görə 20 ölkə arasından finala yüksəlməyi bacarıblar. Final çıxışında isə qızlarımız yeddinci yerdə (19,750 xal) qərarlaşıblar. İl ərzində keçirilən «Challenge» seriyasına aid bütün dünya kuboklarının yekun xallarına əsasən Azərbaycanın qrup hərəkətləri komandası məhz onlara dəfələrlə medal qazandırmış iki ip və üç topla nümayişlərinə görə bütün rəqiblərini geridə qoyaraq qalib olublar.

Qeyd edək ki, bədii gimnastika üzrə dünya çempionatı sentyabrın 11-16-da Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək.

# Səkkiz yaşlı azərbaycanlı gimnast rəqib «tanımır»

Macarıstan Bədii Gimnastika Federasiyasının təşkilatçılığı ilə Budapeştdə XVII ənənəvi «Gracia» kuboku uğrunda yarışlar keçirilib. Yarışlarda ev sahibi Macarıstan ilə yanaşı, ABŞ, Kanada, Rusiya, Ukrayna, Azərbaycan, Lüksemburq, Xorvatiya, Slovakiya, Misir, Çexiya, Avstriya, İspaniya, İsrail, Rumıniya, İtaliya, Malayziya, Gürcüstan, Koreya Respublikası və Braziliyanın milli yığmaları da iştirak ediblər.



Əvvəlki turnirlərdə Macarıstan bayrağı altında çıxış edən 8 yaşlı həmyerlimiz Mina Abbasova bu dəfə Azərbaycanı təmsil edib. Çoxnövçülük yarışlarında həmyaşıdlarını böyük xal fərqi ilə geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxmağı bacaran Mina Abbasova növbəti qızıl medalını Azərbaycan bayrağı altında qazanıb. İkinci pilləyə Ukrayna təmsilçisi, üçüncü yerə isə rusiyalı gimnast sahib olublar.

2010-cu ildə Bakıda anadan olan Mina Abbasova valideynlərinin işi ilə əlaqədar müvəqqəti Budapeştdə yaşayır. İştirak etdiyi bütün beynəlxalq yarışlarda parlaq çıxışları ilə fərqlənən balaca gimnast idman karyerasına beş yaşından başlayıb. O, qısa vaxtda bir çox beynəlxalq yarışlarda uğurla iştirak edib.

# Ronaldunun hesabına...



Portuqaliyalı hücumçu Kriştiano Ronaldunun transferindən sonra Turinin «Yuventus» klubunun səhmləri 55,15 faiz artıb. Hazırda «Yuventus» klubunun səhmləri 1 milyard avro həcmində dəyərləndirilir. Klubun səhmlərinin birjada bu qədər yüksəlməsinin səbəbi isə futbolçunun «Yuventus» formasının satışı ilə izah edilir. Xatırladaq ki, Ronaldu bu yay İspaniyanın «Real Madrid» klubundan 112 milyon avroya «Yuventus» klubuna transfer olunub. Otuz üç yaşlı hücumçunun illik maaşı isə 30 milyon avro təşkil edir.

## mozaika

### mədəniyyət



# Oskar mükafatına namizəd

Türkiyəli rejissor Nuri Bilgə Ceylanın ekranlaşdırdığı «Ahlat Ağacı» filmi 91-ci Akademik Mükafatlandırmada Oskar mükafatına namizəd kimi təsdiqlənib. 17 nəfərlik seçici assambleyası «Xarici dildə ən yaxşı film» nominasiyası üzrə Türkiyə namizədini müəyyənləşdirmək üçün qiymətləndirmə iclasını keçirib. Bədii tədbirlər komissiyasına müraciət edən 12 ekran əsərinin dəyərləndirildiyi komissiyada Kann Film Festivalında nümayiş etdirilən «Ahlat Ağacı» filmi namizəd seçilib.

Akademik Mükafatlandırmanın 2019-cu ilin fevralında ABŞ-da keçirilməsi planlaşdırılır.

### texnologiya

# «Ağıllı» internet qurğuları hazırlanıb

Amerikalı mühəndislər tərəfindən hazırlanmış passiv (daxili enerji mənbəyi olmayan element) çap nişanlarını məişət əşyalarına birləşdirməklə onları «ağıllı» internet qurğularına çevirmək mümkündür.

Yeni metal nişanlar mis folqadan hazırlanıb, nazik kağız altlıqlarda çap edilib və «Wi-Fi» siqnalları tezliyində işləyə bilir.

Nişanları insanların hər gün istifadə etdiyi əşyalara (məsələn, su butulkası, divar və ya qapı) bərkitmək olar. Passiv nişanlar yalnız «Wi-Fi» tezlikləri diapazonu daxilində müəyyən siqnalların əks edilməsi üçün nəzərdə tutulub. Lakin alimlər materialın tipini və çap formasını dəyişdirməklə nişanları elə layihələşdirə bilərlər ki, onlar «Bluetooth», «LTE» siqnallarını və ya mobil siqnalları əks etdirsinlər. Nişanlar, həmçinin batareya, silisium çip və ya hər



hansı diskret elektron komponentə malik deyil, buna görə baxım tələb etmir.

# Köynək xəbərdarlıq edir

Yaponiyanın idman malları istehsalı sahəsində tanınmış «ASICS Corporation» və telekommunikasiyalar sahəsinin nəhənglərindən biri olan NTT şirkəti sahibini günvurmadan qoruyan köynəyi ictimaiyyətə təqdim ediblər.

Xəbərdaredici sensorla təchiz edilən köynək avqustun 23-də nümayiş olunub.

Köynəyin arxa hissəsində yerləşdirilən sensor sahibinin ürək döyüntülərini, köynəyin altındakı hərarəti və nəmişliyi, həmçinin günəşin istiliyini izləyir. Sensor əldə edilən məlumatları köynəyin sahibinə ötürməklə ona öz fiziki vəziyyətinə nəzarət etmək imkanı yaradır. Günvurma təhlükəsi yarandığı təqdirdə qurğu köynək sahibinə xəbərdarlıq edir.

### tam ciddi

# Futbolçunu satıb... keçi aldılar

Türkiyənin İsparta şəhərində həvəskarlar liqasında oynayan «Gülspor» futbol klubu 1954-cü ildə təsis edilmişdir və şəhərin ən yaşlı komandalarındandır. Klubun əsas profili 11-19 yaş arasında gənc futbolçular yetişdirməkdir.

150 nəfərə yaxın futbolçusu olan klub bu il yetişdirdiyi futbolçulardan 18 nəfərini sataraq 15 min lirə gəlir əldə etmiş, həmin gəlirə isə 10 damazlıq keçi almışdır. Futbol meydançasının yaxınlığındakı fermada saxlanılan keçilərdən birinci il 4-5 min lirə süd gəliri və 20 bala almaq gözlənilir. Klubun açıqlamasına görə, keçilər Türkiyənin yerli cinsidir. Bir keçi ildə 600 litr süd verir. Klub rəhbərliyi qarşıdakı altı ildə keçilərin sayını 140-a çatdırmağı planlaşdırır.

### kosmos



# Ayın səthində buz aşkar edilib

Alimlər Ayın səthində donmuş suyun mövcudluğu barədə təkzibedilməz sübutların olmasına əmindirlər. Çox qədim mənşəyi olan buzlar Yerin təbii peykinin şimal və cənub qütblərində aşkar olunub.

Bu nəticələr 2008-2009-cu illərdə Ayın səthində tədqiqat aparmış Hindistanın «Chandrayaan-1» kosmik missiyasının təqdim etdiyi faktlara əsaslanıb.

Belə ki, bu missiyanın hazırladığı Ayın Mineraloji Xəritəsində buradakı suyun üç halı (maye, bərk və buxar) olduğu əksini tapıb. Cənub qütbündə donmuş su mənbələri kraterlərdə sıx kütlə halında, şimalda isə daha seyrək və geniş əraziyə yayılmış vəziyyətdədir. Xüsusi cihaz vasitəsilə bu buzların udduğu infraqırmızı şüaların miqdarı da müəyyən edilib.

Astronomlar bildirirlər ki, əslində, Ayda gündüz vaxtı 100 dərəcə selsiyə çatan temperatur buz kütləsinin yaranmasına imkan vermir. Lakin Ay öz oxu ətrafında 1,54 dərəcə fırlanaraq əyildiyi üçün cənub və şimal qütbləri günəş şüalarına məruz qalmır. Məhz bu səbəbdən qütblərdəki kraterlərdə temperatur mənfi 157 dərəcə Selsiyə çatır. Ayın iki qütbündə olan bu xüsusiyyətlər isə suyun donmasına və buzların uzun müddət qalmasına şərait yaradır. Alimlərin fikrincə, kraterlərdə buzun bir neçə millimetr qalınlıqda olması gələcəkdə insanların Ayın səthindəki suyu tədqiq etməsinə imkan yarada bilər.

Qeyd edək ki, günəş sisteminin digər cisimlərində - Merkuri və cırtdan planet Seresin səthində də donmuş su aşkar edilmişdi.

### cəmiyyət

# Bir ildə 239 milyon dollar qazanc

«Forbes» jurnalının versiyasına görə, Corc Kluni ilin ən çox pul ödənilən aktyorlarının reytinqinə başçılıq edir. Kluni 12 ayda 239 milyon dollar qazanıb. Kino çəkilişlərində qonorardan əlavə, ikiqat Oskar mükafatı laureatı yaradıcısı olduğu Casamigos Tequila kompaniyasının satışından əhəmiyyətli qazanc götürüb. Tekila istehsalçısı olan kompaniya təxminən 1 milyard dollara satılıb.

Siyahıda ikinci yeri 124 milyon dollarla Dueyn Conson tutur. O, bu mövqeyə «Cumanci: cəngəlliyin çağırışı» filmində iştirakı sayəsində çıxıb. Reytinqin üçüncü pilləsində oğul Robert Dauni qərarlaşıb (81 milyon dollar). Ona qazancın böyük hissəsini «Qisasçılar» kinosiklində çəkilişlər gətirib. «Forbes»in illik reytinqində sonrakı yerləri Kris Hemsfort (64,5 milyon dollar), Ceki Çan (45,5 milyon dollar), Uill Smit (42 milyon dollar), Akşay Kumar (40,5 milyon dollar), Adam Sendler (39,5 milyon dollar), Salman Kxan (38,5 milyon dollar) və Kris Evans (34 milyon dollar) tuturlar.



Jurnal ulduzların reytinq siyahısını 2017-ci il iyunun 1-dən 2018-ci il iyunun 1-dək olan dövrdəki qazancı əsasında tərtib edib. Dünyada ən yüksək ödənişli 10 aktyor hesabat dövründə ümumilikdə 748,5 milyon dollar qazanıb.

### Müdriklər deyib ki...



***«Böyük işlər görmək üçün hüdudsuz ardıcıllıq tələb olunur».***

*Volter (1694-1776)*